QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 014 (5486) 24 **yanvar** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## İlham Əliyev: “Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi istiqamətində böyük uğurlara nail olub”




Səh 2


Azərbaycanda həyata keçirilən inkişaf siyasəti dünya birliyinin diqqət mərkəzindədir — 3



Yeni Azərbaycan Partiyasının fəaliyyəti hər zaman şəffaf olub — 7

Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının beşinci iclası keçirilib — 4



Naxçıvan Muxtar Respublikası investisiya reytinqinin lideridir — 5



Siyavuş Novruzov: “Bu gün YAP-ın namizədinin toplaya biləcəyi səsin 0,1%-ni yığacaq şəxs yoxdur” — 4



Azərbaycan dünyanın ən yaxşı ölkələrinin reytinqində beş pillə irəliləyib — 4



11 — Modern və yenilikçi ölkə olan Azərbaycan öz məhsullarını dünya bazarına çıxarır

asan xidmət

13 — Mais Səfərli: “Müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur”



16 — UEFA prezidenti: Çox varlı klublar ən yaxşı oyunçuları alır



# İlham Əliyev: “Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi istiqamətində böyük uğurlara nail olub”

## İlham Əliyev: “Bir neçə il əvvəl Azərbaycanın əsas məqsədlərindən biri yoxsulluq və işsizliyi azaltmaq idi və bu uğurla həyata keçirildi”




***Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi istiqamətində böyük uğurlara nail olub. Trend-in məlumatına görə, bunu Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən interaktiv iclasda deyib.***

Dövlətimizin başçısı qeyd edib: “İqtisadiyyatın şaxələndirilməsi bizim əsas məqsədimizdir və düşünürəm ki, bu istiqamətdə böyük uğurlara nail olmuşuq. Neftin qiymətləri kəskin azalan zaman mən bildirdim ki, Azərbaycan üçün postneft dövrü artıq başlayıb və biz neft və qazı yaddan çıxarmalıyıq. Əlbəttə, biz hazırkı layihələri yerinə yetirməliyik, lakin əsas gəlir mənbəyi kimi texnologiya, innovasiya, sənaye, sahibkarlıq və kənd təsərrüfatına yönəlməliyik. Ona görə də biz ciddi islahatlar həyata keçirdik və artıq bu islahatlar yaxşı nəticələr göstərməkdədir”.




## “Neftin qiyməti aşağı olsa belə, biz təhlükəsizliyimizi təmin etmişik”



Prezident İlham Əliyev bildirib ki, ötən il Azərbaycanın qeyri-neft sektorunda 3 faiz artım, qeyri-neft sənayesində isə, demək olar, 4 faiz artım qeydə alınıb: “Bildirmək istəyirəm ki, iqtisadiyyatımızın şaxələndirilməsi prosesi artıq gedir və bizim bu tempi azaltmaq planımız yoxdur. Hazırda neftin qiyməti artır, lakin bu bizə sadəcə ehtiyatlarımızı artırmağa imkan verəcək. Biz xərclərimizi optimallaşdıra bildik. Ötən il neftin qiyməti azalsa da, ehtiyatlarımızı 4,5 milyard dollar artıra bildik. Bu o deməkdir ki, neftin qiyməti aşağı olsa belə, biz təhlükəsizliyimizi təmin etmişik”.

Dövlət başçısı qeyd edib ki, bu il dövlət büdcəsində neftin baza qiyməti 1 barelə görə 45 dollardan nəzərdə tutulub: “Beləliklə, bu qiymətdən yuxarı nə olsa, suveren fonumuza gedəcək. Eyni zamanda, başa düşməliyik ki, neft və qaz iqtisadiyyatımızın əsas hissəsi olaraq qalacaq. Bu gün qeyri-neft sektoru bizim ÜDM-in 70 faizini təşkil etsə də, vəzifəmiz ixracı şaxələndirməkdir”.

Enerji layihələrinə gəldikdə isə, Prezident İlham Əliyev qeyd edib ki, onlar Azərbaycan və region üçün vacibdir və Azərbaycanın təşəbbüskarı olduğu bu layihələr regionun enerji xəritəsini dəyişib:

“Gürcüstanın Supsa limanına uzanan, Xəzər və Qara dənizi birləşdirən ilk boru xəttini çəkdik, daha sonra ikinci neft boru xətti Bakı-Tbilisi-Ceyhan Xəzər və Aralıq dənizlərini birləşdirdi. Sonra eyni marşrut boyunca qaz boru xətti inşa etdik. Nəticədə biz artıq karbohidrogenlərimiz üçün ixrac marşrutlarını diversifikasiya etmişik, həm də tərəfdaşlarımızın, o cümlədən Avropada, əhəmiyyətli enerji təhlükəsizliyini təmin edirik”.

Dövlət başçısı qeyd edib ki, Avropa İttifaqının bəzi ölkələri neft tədarükünün çox hissəsini Azərbaycandan alırlar və 2-3 il ərzində “Cənub Qaz Dəhlizi” layihəsinin uğurla başa çatmasından sonra onlar Azərbaycan qazına da çıxış əldə edəcəklər.

“Eyni şeyləri Bakı-Tbilisi-Qars nəqliyyat layihəsi haqqında da demək olar, hansı ki həmin dəmir yolu xətti regionun nəqliyyat xəritəsini dəyişdi. Bu, hazırda Çindən Avropaya kimi ən qısa yoldur və əvvəlki 30-35 gün əvəzinə bu yola iki həftə sərf olunur. Beləliklə, bu, yeni bir nəqliyyat xəritəsi, yeni bir şaxələndirmə xəritəsidir və dənizə çıxışı olmayan Azərbaycan regional nəqliyyat qovşağına çevrilib. Beləliklə, gələcəkdə nə neft, nə də qaz olmayacaq, bunlar bir gün bitəcək, gələcəkdə innovasiya, səmərəlilik, yaxşı idarəetmə, menecment, nəqliyyat, şəffaflıq və sahibkarlıq üçün dövlət dəstəyi olacaq”.

Prezident İlham Əliyev qeyd edib ki, bir neçə il əvvəl Azərbaycanın əsas məqsədlərindən biri yoxsulluq və işsizliyi azaltmaq idi və bu uğurla həyata keçirildi:

“Azərbaycanda yoxsulluğun səviyyəsi 5,4 faizə düşüb, işsizlik isə 5 faizdir. Son 15 ildə əhalimiz 1,5 milyon nəfər artıb, ona görə də iş yerlərinin yaradılması bizim üçün daimi prosesdir. Ötən il 177 yeni daimi iş yeri açılıb. Bu bizim siyasətimizi nümayiş etdirir. Bundan əlavə, neft-qaz sektoru çox iş yeri yaratmır. İşsizliyi aşağı səviyyədə saxlamaq üçün təhsil, idarəetmə, kənd təsərrüfatı, turizm və xidmət sahələrini diqqətdə saxlamalıyıq. Bizim əhali islahatlara hazırdır və islahatlar əhali tərəfindən müsbət şəkildə qəbul olunur. Onlar ağrılı deyil, çünki radikal islahatlar apararkən, ilk mərhələdə əhali üçün ağrılı olur. Beləliklə, hələ də dövlət dəstəyinə ehtiyacı olanlara əhəmiyyətli sosial paket verdik. Ona görə də, bu düzgün bir proses idi və önümüzdəki illərdə biz sadəcə iki il bundan əvvəl başlamış olduğumuz işi - çox dərin və əhatəli islahat siyasətimizi davam etdirməliyik”

# Azərbaycanda həyata keçirilən inkişaf siyasəti dünya birliyinin diqqət mərkəzindədir

## Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Məhəmməd Barkindo görüşdə dedi: "Biz Azərbaycanın OPEC və qeyri-OPEC ölkələrinin bir araya gətirilməsi və 2016-cı ilin dekabrında bununla bağlı tarixi qərarın qəbul edilməsində fəal liderlik rolunu yüksək qiymətləndiririk".***



Prezident İlham Əliyev, öz növbəsində, Məhəmməd Barkindonun OPEC-in baş katibi kimi fəaliyyətinin biznes ictimaiyyəti və ölkələrin gözləntilərinin reallaşmasında mühüm rol oynadığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın bundan sonra da OPEC ilə uğurlu əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edərək Məhəmməd Barkindonu ölkəmizə səfərə dəvət etdi. OPEC-in baş katibi dəvəti minnətdarlıqla qəbul etdi.





Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstanın həyata keçirdiyi qlobal layihələrin əhəmiyyətindən danışıldı. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətinə toxunulan görüşdə TANAP layihəsinin uğurla icra olunduğu məmnunluqla qeyd edildi. Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.





Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "VTB Bank"ın prezidenti, idarə heyətinin sədri Andrey Kostin ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Andrey Kostin Azərbaycanda fəaliyyətlərini inkişaf etdirmək əzmində olduqlarını vurğulayaraq kapitalın həcmini artırmağa maraq göstərdiklərini bildirdi. "VTB Bank"ın prezidenti qarşılıqlı investisiya imkanlarının öyrənilməsinin əhəmiyyətindən danışdı və Azərbaycan Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etdiklərini vurğuladı. O, bu işlərdə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.

Prezident İlham Əliyev ölkəmizin "VTB Bank" ilə əməkdaşlığının genişləndirilməsindən məmnunluğunu ifadə etdi, Azərbaycan Dövlət Neft Fondunun "VTB Bank"ın fəal səhmdarlarından biri olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan tərəfinin "VTB Bank" ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi və bu əməkdaşlığın ölkəmizdə özəl sektorun fəaliyyətinin genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "SUEZ GROUP" şirkətinin baş icraçı vitse-prezidenti və "MEDEF International"ın Fransa-Azərbaycan Biznes Şurasının sədri xanım Marie-Ange Debon ilə görüşüb. Xanım Marie-Ange Debon Prezident İlham Əliyevə "SUEZ GROUP"un Azərbaycanda həyata keçirdiyi layihələr barədə məlumat verərək ölkəmizdəki tərəfdaşlarla çox uğurla əməkdaşlıq etdiklərini bildirdi. Gələcək planlar barədə danışan Marie-Ange Debon Prezident İlham Əliyevə su, kanalizasiya və yağış sularının aradan qaldırılması sahələrindəki yeni texnologiyalar barədə məlumat verdi.

Prezident İlham Əliyev "SUEZ GROUP"un gördüyü işlərdən məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanın gələcəkdə də "SUEZ GROUP"la əməkdaşlıq etməkdə maraqlı olduğunu qeyd etdi.

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Microsoft" şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel ilə görüşü olub. Görüşdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində görülən işlərdən, qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan uğurlu addımlardan danışıldı. Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsinin prioritet istiqamətlərdən biri olduğu qeyd edildi və bu sahədə əldə olunan nailiyyətlərdən söhbət açıldı. "Microsoft" ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və əməkdaşlığın perspektivləri müzakirə olundu.

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xəlid Əl Falih ilə görüşü olub. Xəlid Əl Falih Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını və rəğbət hissini dövlətimizin başçısına çatdırdı. O, Kralın Azərbaycan Prezidentinin bu yaxınlarda ona göndərdiyi məktubdan böyük məmnunluq hissi keçirdiyini bildirdi.

Prezident İlham Əliyev məktubunda Krala və Səudiyyə Ərəbistanına dərin hörmətini ifadə etdiyini, ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu vurğuladı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığın genişləndirilməsi üçün perspektivlərin, iqtisadi, enerji təhlükəsizliyi və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların mövcudluğunu bildirdi. Söhbət zamanı OPEC çərçivəsində əməkdaşlıqdan və SOCAR və "Saudi Ramko" şirkətləri arasında işbirliyindən danışıldı. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

# Siyavuş Novruzov: "Bu gün YAP-ın namizədinin toplaya biləcəyi səsin 0,1%-ni yığacaq şəxs yoxdur"

*SİA Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini Siyavuş Novruzovun trend.az saytına verdiyi müsahibəni təqdim edir:*



***- Siyavuş müəllim, bildiyimiz kimi ötən il Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının hesabat-seçki konfransları başa çatdı. Partiyada hansı dəyişikliklər həyata keçirildi?***

- Ümumiyyətlə, 2017-ci il Yeni Azərbaycan Partiyasının həyatında çox uğurlu bir il kimi yadda qaldı. Həm partiyanın yaranmasının 25 illiyi idi, həmçinin ötən il hər hansı bir seçki olmadığı üçün partiya quruculuğu ilə bağlı, partiyanın maddi-texniki bazasının güclənməsi və kadr bazasının formalaşması ilə əlaqədar müvafiq addımlar atıldı. Partiyanın İdarə heyətinin qərarına uyğun olaraq, partiyanın şəhər və rayon təşkilatlarının konfransları keçirildi. Qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının 84 rayon və şəhər təşkilatı var və o cümlədən, Naxçıvan Muxtar Respublikası təşkilatı var. Partiyanın 7500-ə yaxın ilk partiya təşkilatı fəaliyyət göstərir. Partiya Azərbaycan Respublikasının Milli Məclisində 71 deputat, Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 41 deputat, bələdiyyə məclislərində isə 10 mindən yuxarı üzv ilə təmsil olunur. Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam edib və hesabat dövründə 24 min nəfərdən çox yeni üzv qəbul edilib. Beləliklə, partiya üzvlərinin sayı 710 min nəfəri keçib və sevindirici haldır ki, partiyaya daxil olan üzvlərin böyük əksəriyyəti gənclərdir.

Onu da qeyd etmək istərdim ki, keçirilən şəhər və rayon konfranslarının bir neçəsi 2017-ci ildən öncə olub. 2013-cü ildə bir neçə rayon təşkilatında, yəni Səbail, Yasamal və Kəngərli təşkilatlarında konfranslar keçirilmişdi. 2015-ci ildə də 10 təşkilatda konfranslar keçirilmişdi və qalanları 2017-ci ildə keçirildi. Konfranslar nəticəsində 16 rayon təşkilatında sədrlikdə dəyişiklik oldu. Bunların 10-u 2017-ci ildə, 6-ı isə ondan əvvəlki dövrdə baş verdi. Sədrlərin dəyişilməsinin də obyektiv və subyektiv səbəbləri var. Burada dünyasını dəyişənlər, başqa işə keçənlər var idi. Lakin təəssüflər olsun ki, müəyyən çatışmayan cəhətləri olan təşkilatlar da var idi ki, burada da sədrlərin təşkilatın fəaliyyətini günün tələbləri səviyyəsində qura bilməməsi nəticəsində geriləmə nəzərə çarpırdı və rayon təşkilatı yeni sədr seçilməsinə dair qərarlar qəbul etdi. Rayon və şəhər təşkilatlarının sədrlərinin fəaliyyət istiqamətlərinə nəzər yetirsək, onlardan 8 nəfəri Azərbaycan Respublikası Milli Məclisin deputatı, 8 nəfəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 2 nəfər bələdiyyə sədridir. 39 nəfəri rayon və şəhər icra hakimiyyətlərində, digərləri isə səhiyyə, mədəniyyət, sosial və digər sahələrdə müxtəlif vəzifələr daşıyırlar. Sədrlərdən 10 nəfəri qadındır. Həmçinin, keçirilmiş konfranslarda partiyanın rayon şuralarının, nəzarət təftiş qruplarının tərkibində də dəyişikliklər olub və təxminən 30 faizə yaxın yenilənib. Bütövlükdə, Yeni Azərbaycan Partiyası 2018-ci seçki ilinə hazır olmaq üçün tam şəkildə partiya həyatı ilə bağlı lazım olan bütün zəruri təşkilati addımları atıb.

***- Siyavuş müəllim, bütün bunları qarşıdan gələn prezident seçkilərinə hazırlıq hesab etmək olarmı?***

- Yuxarıda da qeyd etdiyim kimi, Yeni Azərbaycan Partiyası qarşıdan gələn seçkilərə tam şəkildə hazır vəziyyətdədir. Biz hər bir seçkiyə bir il öncədən hazırlaşırıq. Rayon və şəhər təşkilatlarında keçirilən bu konfranslar da qarşıdan gələn seçkilərə hazırlıqla əlaqədardır. Mən qeyd etdim ki, bizim partiyanın 7500 ilk təşkilatı var. Azərbaycanda 5100-dən artıq seçki məntəqəsi var. Hər bir məntəqə ətrafında Yeni Azərbaycan Partiyasının bir və yaxud bir neçə ilk təşkilatı fəaliyyət göstərir. Bizim ilk təşkilatlar ərazi prinsipi əsasında qurulub və biz çalışmışıq ki, hər bir seçki məntəqəsi ətrafında Yeni Azərbaycan Partiyasının ilk təşkilatları olsun. Bunun çox böyük səmərəli cəhətləri var, həm imza toplama kampaniyasında, həm təbliğat-təşviqat aparılması dövründə, həm müşahidəçilik missiyasının həyata keçirilməsi zamanı məntəqələr ətrafında fəaliyyət göstərən ilk təşkilatlarımız mühüm rol oynayır.

Biz seçkilərə adətən bir neçə mərhələdə hazırlaşırıq. Birinci mərhələ partiyanın ümumi hazırlığıdır və qeyd etdiyim kimi, ötən ildən başlayaraq biz partiyanın rayon təşkilatlarının maddi-texniki və kadr bazasının möhkəmləndirilməsi məsələləri böyük ölçüdə həll edilib. Habelə, seçki prosesində müxtəlif funksiyalar həyata keçirəcək insanların hazırlığı da daim diqqət mərkəzindədir. Biz artıq növbəti mərhələ ilə məşğuluq. Belə ki, seçkilərlə bağlı fevral ayından etibarən partiya üzvlərinə treninqlərin keçirilməsinə başlayacağıq. Xüsusilə gəncləri bu prosesə cəlb etməyə çalışırıq. Yeni Azərbaycan Partiyasının kifayət qədər geniş seçki təcrübəsi var və bu təcrübəni təkmilləşdirərək hər seçkidə müasir seçki texnologiyaları tətbiq edirik. Bu baxımdan, qarşıdakı seçkilər də istisna olmayacaq.

***- Seçkilərdə Yeni Azərbaycan Partiyasına hansısa rəqib görürsünüz?***

- Yeni Azərbaycan Partiyası nəinki ölkə daxilində, ölkədən xaricdə də heç bir rəqib görmür. Azərbaycanda gedən quruculuq, abadlıq, iqtisadi inkişaf göz qabağındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin və xalqımızın maraqlarını ən yüksək səviyyədə təmsil edir, çox ciddi islahatlar aparır. Hamımız üçün qürurverici haldır ki, Azərbaycan bu gün Avropanın aparıcı dövlətləri ilə müqayisə olunur, ölkədə ictimai-siyasi sabitlik hökm sürür və bunun nəticəsində iqtisadiyyat yüksək templərlə inkişaf edir. 2017-ci ilin yekunlarında da göstərildi ki, iqtisadiyyatda ciddi irəliləyişlər var, sosial problemlər uğurla həll olunur, abadlıq-quruculuq işləri ardıcıl həyata keçirilir. Həmçinin, hamımız şahidik ki, ölkə xaricində Azərbaycanın maraqları ən yüksək səviyyədə təmin olunur. Beynəlxalq konfranslarda, o cümlədən Azərbaycanda keçirilən beynəlxalq toplantılarda ölkəmiz haqqında xaricdən gələn insanların çıxışları və burada gördüklərini məmnunluqla qeyd etmələri, həmçinin, Azərbaycana çox ciddi turist axınının olması bilavasitə respublikamızın inkişafının göstəriciləridir. Xalq ilə iqtidarın möhkəm birliyi mövcuddur və cənab Prezidentin nüfuzu daim artmaqdadır.

Qeyd etdiyimiz kimi, Yeni Azərbaycan Partiyasının 710 mindən artıq üzvü var. Bütün üzvlər aktivdirlər, Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayan insanlardırlar. Yəni, Yeni Azərbaycan Partiyası güclü bir siyasi ordudur. Digər tərəfdən, Yeni Azərbaycan Partiyası hər seçkiyə çox ciddi hazırlaşır. Bəzi təşkilatlar seçkilər rəsmi qaydada elan olunana qədər hələ müəyyən etmir ki, seçkidə iştirak edəcək, ya yox? Təbii ki, belə təşkilatlar elə ilk andan uğursuzluğa düçar olacaq. Seçkinin öz texnologiyası var. Bütün dünyada belədir ki, seçki qabaqcadan planlaşdırılır və bütün addımlar atılır. Seçkilərdə ən vacib şərt zamandır ki, o zamana əməl olunmalıdır. Zaman buraxıldısa, onu bərpa etmək qeyri-mümkündür.

Bəzən mən də mətbuatdan oxuyuram ki, hansısa ölkədən namizəd gəlir. Halbuki, hər kəsə yaxşı məlumdur ki, istər ölkə daxilində, istərsə də ölkə xaricində bu gün Yeni Azərbaycan Partiyasının namizədinin toplaya biləcəyi səsin 0.1 faizini toplayacaq şəxs yoxdur.



## Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının beşinci iclası keçirilib

Yanvarın 23-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının beşinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Milli Əlaqələndirmə Şurasının fəaliyyətə başladığı dövrdən sonra kifayət qədər işlərin görüldüyünü və qarşıya qoyulan mühüm vəzifələrin yerinə yetirildiyini bildirib.

Baş nazirin müavini qeyd edib ki, ötən il Azərbaycan Respublikasının Könüllü Milli Hesabatı BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunub. Bu hesabatın hazırlanmasında Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının tərkibində yaradılan işçi qrupların fəaliyyəti təqdirəlayiqdir. Həmin hesabat "Azərbaycan-2030: Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru" adı ilə Azərbaycan dilinə tərcümə olunub. Bundan başqa, AZƏRTAC-ın materialları əsasında üç dildə "Dayanıqlı İnkişaf Məqsədləri: iclaslar, görüşlər, tədbirlər..." adlı kitab çap edilib.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri bildirib ki, ötən dövr ərzində bu sahədə maarifləndirmə işləri də görülüb. Milli Məclis ilə şura arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün müxtəlif işlər görülüb. Azərbaycan dilində "Parlamentlər və Dayanıqlı İnkişaf Məqsədləri" adlı məcmuə çap edilib. Bu nəşr Milli Məclisin üzvləri üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətli olacaq.

Əli Əhmədov deyib ki, ötən dövrdə şuranın katibliyi və işçi qrupları öz fəaliyyətini davam etdirib. Həmçinin BMT tərəfindən bu sahədə müxtəlif monitorinqlər aparılıb. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının ildə dörd iclasının keçirilməsi məqsədəuyğundur. Bu iclaslarda monitorinq və işçi qruplarının hesabatları dinləniləcək.

İclasda Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə 2017-ci ildə görülmüş işlər və qarşıda duran məsələlər müzakirə edilib. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində 2016-2017-ci illərdə görülmüş işlər barədə xüsusi hesabatın xülasəsi nəzərdən keçirilib və Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi barədə qərar qəbul olunub. Bundan başqa, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə göstəricilərin milliləşdirilməsi və prioritetlərin seçilməsi il bağlı cari vəziyyət və qarşıda duran məsələlər müzakirə edilib. Həmçinin 2019-cu ildə Yüksək Səviyyəli Siyasi Foruma Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının təqdim edilməsinə dair müzakirələr aparılıb.

## Azərbaycan dünyanın ən yaxşı ölkələrinin reytinqində beş pillə irəliləyib

ABŞ-ın "U.S. News & World Report" jurnalı 2018-ci il üçün dünyanın ən yaxşı ölkələrinin siyahısını dərc edib. Azərbaycan reytinqdə beş pillə irəliləyib. AZƏRTAC xəbər verir ki, ölkəmiz reytinq cədvəlində 2017-ci ildəki 69-cu yerdən 64-cü yerə yüksəlib. Cədvəldə liderlər demək olar dəyişməyib: ilk beş yeri İsveçrə, Kanada, Almaniya, Böyük Britaniya və Yaponiya tutub.




Reytinq ekspertlərin 36 ölkədən 21 min nəfər arasında keçirdikləri sorğunun nəticələri əsasında tərtib olunub. Ölkələr turizm baxımından cəlbediciliyi, təbiətinin gözəlliyi, siyasi nüfuzu, təhsilin səviyyəsi və digər amillər üzrə qiymətləndirilib.

# Naxçıvan Muxtar Respublikası investisiya reytinqinin lideridir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqini hazırlayıb. Azərbaycan regionlarının investisiya reytinqinin lideri ən yüksək ümumi bal toplamış Naxçıvan Muxtar Respublikası olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvarın 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirilib.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak edib. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası davamlı inkişaf yoluna qədəm qoyub. İqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam edib. Ümumi daxili məhsulun həcmi artaraq 2 milyard 701 milyon 663 min manat olub, 2017-ci ildə 967 milyon manatdan artıq sənaye məhsulu istehsal edilib. Əgər 1990-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, hazırda bu müəssisələrin sayı 7,9 dəfə artaraq 442-yə çatıb. Muxtar respublikada 372 növdə məhsulun istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olub. Son illər güzəştli dövlət maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 254 heyvandarlıq, 84 quşçuluq, 15 balıqçılıq, 104 arıçılıq, 65 bağçılıq, 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min ton olan 31 soyuducu anbar, ümumi sahəsi 128 min 162 kvadratmetr olan 21 istixana kompleksi, 19 taxıl emalı müəssisəsi yaradılıb.

Qeyd olunub ki, məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə son illər rayon və kəndlərdə 714 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb. Bütün bunların nəticəsidir ki, 2017-ci ildə ümumilikdə aqrar sektorda 453 milyon 365 min manatlıq məhsul istehsal olunub. Ümumilikdə, son illər muxtar respublika iqtisadiyyatına 8,5 milyard manatdan çox investisiya yönəldilib, 12 mindən çox müxtəlif təyinatlı obyekt istifadəyə verilib. Əvvəllər muxtar respublikada cəmi bir elektrik stansiyası vardısa, bu gün enerji istehsalı müəssisələrinin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılıb. Ötən il müasir yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilib, 70,5 kilometr uzunluğunda avtomobil yolları salınıb, 12 körpü tikilib və ya yenidən qurulub, muxtar respublikaya xarici ölkələrdən 410 mindən çox turist gəlib. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 98 faizi genişzolaqlı, 99 faizi isə simsiz internet xidməti ilə təmin olunub, 4G mobil rabitə xidməti istifadəyə verilib. 2000-ci ildən ötən dövr ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 1244 layihənin maliyyələşdirilməsinə 136 milyon 182 min manatdan çox güzəştli kreditlər ayrılıb. 2003-cü ildən ötən müddətdə muxtar respublika üzrə 71 mindən artıq yeni iş yerləri yaradılıb. Bu müddət ərzində muxtar respublikanın xarici ticarət dövriyyəsi 1995-ci illə müqayisədə 24,2 dəfə artaraq 2017-ci ildə 459 milyon 889 min ABŞ dollarına çatıb, xarici ticarətdə 386 milyon 751 min ABŞ dolları həcmində müsbət saldo yaranıb, 50-dən çox xarici ölkə ilə ticarət əlaqələri aparılıb.

"Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyev Naxçıvan Muxtar Respublikasının investisiya reytinqində ilk yeri tutmasını və bununla bağlı tədbirin Heydər Əliyev Muzeyində keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirib.

Qeyd olunub ki, "Caspian European Club" dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. "Caspian European Club"un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. 2017-ci il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilib. Xüsusilə muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması, yüksək standartlara uyğun yeyinti məhsullarının istehsal olunması, müasir turizm infrastrukturu, biznes və investisiya mühiti üçün yaradılan şərait ekspertlər tərəfindən düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirilib.

Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Ali Məclisin Sədrinə "Caspian European Club"un mükafatını təqdim edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək deyib: Hər bir ölkə inkişafa nail olmağa çalışır. Lakin o ölkədə inkişaf təmin olunur ki, orada sabitlik, müəyyən olunmuş inkişaf yolu və dövlət-xalq birliyi olsun. Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda inkişaf, sabitlik və dövlət-xalq birliyi təmin olunub. Ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub.

Ali Məclisin Sədri deyib: Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlar Azərbaycanın hər bir bölgəsini əhatə edib. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının qəbulu və icra olunması ölkəmizdə tikinti-quruculuq işlərinin həcmini xeyli artırmış, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, əhalinin rifah halı yaxşılaşmışdır. Ötən dövrdə istifadəyə verilən məktəb binaları, olimpiya idman kompleksləri, xəstəxanalar, salınan yollar, yaradılan yeni istehsal müəssisələri, açılan yüz minlərlə iş yerləri bir daha göstərir ki, Azərbaycanda inkişafın mərkəzində insan amili dayanır. Naxçıvan Muxtar Respublikasının inkişafı da ölkə başçısının müəyyən etdiyi "Güclü dövlət, yüksək rifah" strategiyasına əsaslanır.



Ardı Səh. 6

# Naxçıvan Muxtar Respublikası investisiya reytinqinin lideridir



Əvvəli səh. 5

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".

Qeyd olunub ki, bu gün Ümummilli Liderimizin arzuları ölkə Prezidentinin diqqət və qayğısı ilə həyata keçirilir. 25 ildən artıq bir dövrdə blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada sabitlik və inkişafa nail olunub, etibarlı müdafiə sistemi yaradılıb. Daxili imkanlardan səmərəli istifadə və həyata keçirilən iqtisadi islahatlar nəticəsində ərzaq və enerji təhlükəsizliyi təmin edilib. Şəhər və rayon mərkəzlərindən ən ucqar dağ və sərhəd kəndlərinə qədər, bütün yaşayış məntəqələri qazlaşdırılıb, mənzillərə fasiləsiz elektrik enerjisi verilir, əhaliyə dayanıqlı rabitə və sürətli internet xidməti göstərilir.

Ali Məclisin Sədri deyib: Ölkə Prezidentinin qayğısı ilə bu gün Azərbaycanın bütün regionlarında davamlı inkişaf təmin edilib. Sağlam rəqabət mühiti formalaşıb. Yaradılmış inkişafın nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır. Təbii ki, muxtar respublikamız bu uğura ölkə başçısının göstərdiyi böyük diqqət və qayğı, Ümummilli Liderin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda çəkilən zəhmət sayəsində nail olmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını, hörmət və ehtiramını bildirib.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərdə əməyi olan bütün muxtar respublika sakinlərinə, sahibkarlara və dövlət qulluqçularına, əmin-amanlığın təmin olunmasındakı xidmətlərinə görə hüquq-mühafizə orqanlarına, ordu, birləşmə və hissələrin şəxsi heyətlərinə təşəkkür edib. Ali Məclisin Sədri sağlam rəqabət mühiti formalaşdırdığına, nəticələrin düzgün qiymətləndirilməsinə görə "Caspian European Club"a da təşəkkür edib və əminliyini bildirib ki, reytinqin nəticələri muxtar respublikada yeni investisiyalar üçün geniş imkanlar açacaq, Naxçıvan Muxtar Respublikası bundan sonrakı illərdə də Azərbaycanın inkişafına öz töhfəsini verəcəkdir.

Muxtar respublika ictimaiyyəti və ziyalılar adından çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev deyib ki, Naxçıvan ölkəmiz üçün həmişə strateji əhəmiyyətli bir diyar olub. Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil üstün yer tutub. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycanın bütün regionları kimi, Naxçıvanın da hərtərəfli inkişafına daim diqqət yetirib və hər səfərində burada aparılan işlərin yüksək səviyyədə və zövqlə görülməsini dəfələrlə vurğulayıb.

İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi diqqət və qayğıya görə muxtar respublikanın ictimaiyyəti və ziyalıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün investisiya reytinqində yüksək bal toplayaraq ilk yeri tutması burada aparılan davamlı sosial-iqtisadi inkişafın məntiqi nəticəsidir. Ziyalılar və elmi müəssisələrin işçiləri sadə adamlarla tez-tez ünsiyyətdə olurlar. Xoşdur ki, bütün sahələrdə, o cümlədən sosial sahələrdə həyata keçirilən tədbirlər insanlarda əminlik yaradır. Muxtar respublikada əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən biridir. Bu gün səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri, mürəkkəb cərrahiyyə əməliyyatları aparılır ki, 20 il bundan əvvəl biz bunları ancaq arzu edə bilərdik. Muxtar respublikada 200-dən çox təhsil müəssisəsi yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Muxtar respublikada təhsil sahəsində görülən işlərin nəticəsidir ki, ölkəmizin ali təhsil sistemində ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Təhsil Mərkəzləri yaradılıb. Akademiyanın Naxçıvan Bölməsi ilə ümumtəhsil məktəbləri arasında distant dərslər keçirilir, elmi dərəcəli müəllimlərin ümumtəhsil məktəblərində nümunəvi dərsləri təşkil olunur. 90-cı illərin ortalarında Naxçıvan Muxtar Respublikasında cəmi 4 elmlər doktoru, 162 fəlsəfə doktoru vardısa, hazırda 2 akademik, akademiyanın 9 müxbir üzvü, 40-dan çox elmlər doktoru, 300-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir. Milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılmasına böyük diqqət göstərilib, 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınıb və pasportlaşdırılıb, 60-dan çox tarix və mədəniyyət abidəsi əsaslı şəkildə bərpa edilib. Muxtar respublikanın inkişaf və quruculuq mərhələsinə gəlib çatması asan başa gəlməyib. Görülən işləri gözlərimiz önünə gətirdikdə böyük zəhmət, düşünülmüş siyasət, düzgün və ədalətli idarəetmə, uzaqgörənlik, ümummilli lider Heydər Əliyev ideyalarına sadiqlik görürük. Budur Naxçıvan Muxtar Respublikasını inkişafa qovuşduran əsas amillər. İsmayıl Hacıyev əldə edilmiş yüksək nailiyyətlərə görə muxtar respublikanın ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

## Mir Cəlal Paşayevin hekayələr toplusu Türkiyədə çap edilib




***Görkəmli yazıçı, ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Kəmtərovlar ailəsi" adlı hekayələr kitabı Türkiyədə işıq üzü görüb. Azərbaycan Yazıçılar Birliyindən SİA-ya verilən xəbərə görə, yazıçının 110 illik yubileyinə ərməğan olaraq hazırlanan kitab Türk Ədəbiyyatı Vəqfi tərəfindən "Türk dünyası ədəbiyyatı seriyası"ndan çap olunan birinci əsərdir.***

Kitabda Mir Cəlalın "Həkim Cinayətov", "Bostan oğrusu", "İclas qurusu", "Kəmtərovlar ailəsi", "İstifadə", "Elçilər qayıtdı", "Niyə ovdan ayaq çəkdim", "Təzə toyun nəzakət qaydaları", "Vətən yaraları", "Susuzluq", "Leyla", "Müalicə", "Plovdan sonra", "Nazik mətləb", "Xarici naxoşluq", "Ay İsmayıl, başa sal", "İnsanlıq fəlsəfəsi" kimi bir-birindən maraqlı, müxtəlif mövzulu, müxtəlif səpkili hekayələri yer alıb. Kitab yazıçının qısa bioqrafiyası ilə başlayır. Bioqrafiyadan sonra gələn "Təqdim" bölməsində Türk Ədəbiyyatı Vəqfinin rəhbəri Sərhat Kabaklı kitabın Türkiyədə çap olunması ideyasının yaranması, Mir Cəlal şəxsiyyəti və yaradıcılığı haqqında düşüncələrini bölüşərək deyir: "Türk Ədəbiyyatı Vəqfi olaraq, 2018-ci ildən etibarən Türk Dünyasının bütün coğrafiyalarına, türkcə danışılan hər bir Vətən parçasına yetməyi və buralarda yaşayan qardaşlarımızla, ədəbiyyat və sənət mühiti ilə qucaqlaşıb ədəbi əlaqələrimizi genişləndirməyi hədəf olaraq seçmişik. Bu hədəfə doğru ilk addım isə Azərbaycan Yazıçılar Birliyi ilə birgə atılıb. Belə ki, bu çərçivədə yayımlanan ilk əsər də Azərbaycan ədəbiyyatından - bu il 110 illik yubileyi qeyd olunacaq Mir Cəlalın "Kəmtərovlar ailəsi" adlı hekayələr kitabı olub".

Onun sözlərinə görə, bu əsərdə yer alan və hər biri oxucuda ciddi təsir oyadan hekayələr və Mir Cəlalın ədəbi şəxsiyyəti ilə bağlı təhlillər aparmaq mümkündür. Kitabda "Ön söz" yerinə yazıçının 2005-ci ildə Azərbaycanda işıq üzü görən "Seçilmiş əsərləri"nə Yaqub İsmayılovun yazdığı "Ön söz"dən çıxarışlar əlavə olunub. "Ön söz"də Mir Cəlalın ədəbiyyata gəldiyi ilk illərdən başlamış bütün yaradıcılığını incəliklərlə təhlil edən Y.İsmayılov onun ayrı-ayrı hekayələrini mövzu və ideya baxımından qruplaşdıraraq, oxucuya sxematik mütaliə üçün yardımçı olur: "Diqqəti zahiri effektə yox, daxili mənaya, səciyyəvi əlamətə yönəltmək, obrazı konkret əməlləri, duyğu-düşüncələri, fərdi və ümumi cizgiləri ilə canlandırmaq Mir Cəlal sənətini dəyərləndirən keyfiyyətlərdəndir. Müəllifin əlvan mövzulu hekayələrində həyat bir rəngli deyil, müxtəlif sahələri, əxlaqi-tərbiyəvi motivləri, ailə-məişət məsələləri, adi əhvalatları, dərin mətləbləri, aktual və gərəkli hadisələri ilə tədqiq olunurdu. Yumoristik və satirik əsərlərində lirika olduğu kimi, lirik əsərlərində də çox vaxt mənalı gülüş, tənqidi ruh vardı. Mir Cəlal ədəbiyyata "yeniləşən insan" surətləri də gətirdi. Əməkçi insanın, xüsusən Azərbaycan qadının taleyi, fikri-mənəvi təkamülü ədibi ciddi düşündürən problem idi". Əminik ki, qardaş ölkədə çap olunan bu kitab nəinki türkiyəli, eləcə də Türkiyə türkcəsində anlayan, mütaliə edən hər bir oxucu üçün Mir Cəlal yaradıcılığı və onun fonunda müəyyən dövr Azərbaycan ədəbiyyatı haqqında təsəvvürlər əldə etmək üçün əvəzsiz vasitə olacaq.

# Yeni Azərbaycan Partiyasının fəaliyyəti hər zaman şəffaf olub

## *Radikal müxalifət partiyaları isə kirli gəlirlərini gizlətməklə məşğuldurlar*

***Bəlli olduğu kimi, 2017-ci ildə Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında hakim partiyanın maliyyə hesabatı ilə bağlı mətbuata məlumat verilib və bununla, bir sıra statistik rəqəmlər tam şəffaflığı ilə xalqın diqqətinə çatdırılıb. Yəni bu kimi məlumatlarda il ərzində partiyanın nə qədər gəliri olduğu, onun hara xərcləndiyi və bu gəlirlərin mənbələri tam açıqlığı ilə göstərilir. O cümlədən, hər bir maraqlanan tərəf təqdim edilən hesabatlarla yaxından tanış olmaq imkanındadır. Bu faktor isə, bir daha onu göstərir ki, YAP yarandığı dövrdən hazırkı dövrə qədər öz fəaliyyətini şəffaflıq prinsipləri əsasında qurub və yalnız xalqın, o cümlədən, dövlətçilik maraqlarının mövqeyindən çıxış edib.***

### AXCP, Müsavat, ADP, KXCP, "Ümid", ALP, AzDP, AXP və s. müxalifət təşkilatları barədə, demək olar ki, tez-tez müəyyən faktlar gündəmə daxil olur

Maraqlıdır ki, ölkədə fəaliyyət göstərən bir çox siyasi təşkilatlar, xüsusilə, ənənəvi müxalifət düşərgəsinə aid olan radikal qurumlar heç vaxt öz maliyyə hesabatlarını təqdim etməməklə yanaşı, ötən illər ərzində, gəlirlərinin haradan və hansı dairələrdən əldə edildiklərini israrla gizlətməyə çalışırlar. Halbuki bu gün AXCP, Müsavat, ADP, KXCP, "Ümid", ALP, AzDP, AXP və s. müxalifət təşkilatları barədə demək olar ki, tez-tez müəyyən faktlar gündəmə daxil olur. Misal üçün, "Mühacir biznesi"ndən tutmuş, "partbilet" alverlərinə qədər olan bütün qanunsuz maliyyə maxinasiyaları radikal düşərgəyə mənsub partiyalarda mövcuddur. Bu zaman haqlı bir sual meydana çıxır: bəs bu partiyalar neçə illərdir hansı vasitələrlə (vəsaitlərlə-R.R.) az qala özlərini "ana müxalifət" partiyaları kimi ictimai rəyə sırımağa cəhd göstərirlər?

### Əgər üzvlük haqları sıfırla göstərilirsə, bu faktın özü belə qənaətə gəlməyə əsas vermir ki, onların, ümumiyyətlə, heç bir üzvləri yoxdur?

Düzdür, müxalifətdə olan bəzi siyasi təşkilatlar da hesabatlarını təqdim edirlər. Lakin radikal müxalifət həmişə maliyyə hesabatı verməkdən qaçıb. Onlar ya belə bir hesabatı vermirlər, ya da təqdim etdikləri hesabatlarda göstərilən rəqəmlər onların həqiqəti əks etdirmədiyini dəfələrlə isbatlamış olub. Məsələn, radikal müxalifət partiyalarının dırnaqarası hesabatlarında, adətən, heç bir maliyyə mənbəyinə və gəlirlərə malik olmadıqları (?) göstərilir. Halbuki hər bir siyasi təşkilat kimi, radikal müxalifətdə də partiya yetkililərindən üzvlük haqları toplanır və toplanan bu vəsaitlər də partiyaların keçirdikləri müxtəlif tədbirlərə xərclənir. Bu baxımdan, keçirdikləri uğursuz, ucuz və heç bir işə yaramayan mitinq və toplantılarında pafosla danışan radikal müxalifət "liderləri" üzvlük haqlarını sıfır rəqəmi ilə ölçürlər. Bu zaman daha bir sual meydana çıxır: əgər üzvlük haqları sıfır həddinə enirsə, bu faktın özü belə qənaətə gəlməyə əsas vermir ki, onların, ümumiyyətlə, heç bir üzvləri yoxdur? Yaxud əgər üzvləri varsa və onlardan üzvlük haqları toplanırsa, deməli, bu pullar müəyyən işlərə sərf olunur. Bəs onda, niyə bunun hesabatı verilmir? Beləliklə, bənzər sualların sayını artırmaq da olar. Daha doğrusu, bu sualların cavabsız qalmaları, həm də o anlama gəlir ki, radikal müxalifətin maliyyə mənbələri və xərcləri heç də şəffaf və demokratik prinsiplər üzərində qurulmayıb. Çünki özlərini "lider" adlandıranlar öz maliyyə fəaliyyətlərini qanuna müvafiq şəkildə qursaydılar, heç şübhəsiz, çəkinmədən maliyyə hesabatlarını da təqdim edərdilər.

### Xalqın böyük əksəriyyəti, bilavasitə arxalandığı, güvəndiyi ümumxalq partiyasına - Yeni Azərbaycan Partiyasına dərin rəğbətini bildirir

Digər tərəfdən, dəfələrlə sübuta yetirilib ki, radikal müxalifət, əsasən, xaricdən maliyyələşir. Onlar xarici donorlardan aldıqları vəsaitləri yaratdıqları qeyri-hökumət təşkilatları vasitəsilə, eləcə də, heç bir qanuna müvafiq olmadan mənimsəyirlər. Aydın məsələdir ki, xarici donorlardan asılı olan bu qüvvələr aldıqları vəsaitləri də, məhz əcnəbi qurumların maraqlarına uyğun istiqamətə yönəldirlər. Yəni həmin vəsaitlər çox hallarda ölkəmizdə qeyri-stabil vəziyyətin yaradılmasına yönəldilir. Xüsusilə, hər hansı bir siyasi hadisə - seçkilər, referendumlar və s. siyasi-ictimai ərəfələrdə onlar aldıqları əmrləri icra etməklə, şəxsi ciblərini kirli pullarla doldurmağa çalışırlar. Buraya, yuxarıda qeyd edilən fikirləri də əlavə edərsək, radikalların, ümumiyyətlə, qeyri-qanuni olaraq gündəmdə qalmalarını əminliklə deyə bilərik. Beləliklə, məhz bu amilin açıla biləcəyi və radikalların ölkə qanunlarına zidd fəaliyyət göstərdikləri, bir daha bütün çılpaqlığı ilə üzə çıxacağı səbəbindən, onlar maliyyə hesabatı verməkdən yayınmağa çalışırlar. Bu baxımdan, xalqın böyük əksəriyyəti, bilavasitə arxalandığı və güvəndiyi ümumxalq partiyasına - Yeni Azərbaycan Partiyasına dərin rəğbətini göstərir. Hər halda, bizlər bütün hallarda, bu reallığın şahidlərinə çevrilirik.

**Rövşən RƏSULOV**

# 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Pakistanda "Şəhidlər ölməz və unudulmazdır" adlı tədbir keçirilib






***Azərbaycanın Pakistandakı səfirliyi bu ölkənin Daxili İşlər Nazirliyi ilə birgə 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar "Şəhidlər ölməz və unudulmazdır" mövzusunda anım tədbiri keçirib. AZƏRTAC xəbər verir ki, Azərbaycan və Pakistan şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirdə Pakistan Daxili İşlər Nazirliyinin rəhbərliyi, şəhid ailələri, polis zabitləri, xarici ölkələrin Pakistandakı səfirləri və digər diplomatlar, şəhər ictimaiyyətinin nümayəndələri, jurnalistlər iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları İslamabad ərazisi üzrə Baş Polis İdarəsində Azərbaycan və Pakistan bayraqlarının dalğalandığı "Şəhidlər" abidəsinin önünə əklil qoyublar. Azərbaycanın və Pakistanın dövlət himnləri səslənib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, 20 Yanvar hadisələrinin Azərbaycanın müstəqilliyinin qazanılmasındakı rolundan bəhs edən videoçarx nümayiş etdirilib.***

İslamabad ərazisi üzrə Baş Polis İdarəsinin rəhbəri Sultan Azam Teymuri rəhbərlik etdiyi qurumda 20 Yanvar hadisələrinin 28-ci ildönümünün və hər iki ölkə şəhidlərinin xatirəsinin yad edilməsinin qürurverici olduğunu bildirib, bu təşəbbüsə görə Azərbaycanın Pakistandakı səfirliyinə minnətdarlığını çatdırıb. O rəhbərlik etdiyi idarənin əməkdaşlarının Pakistanın terrorla mübarizədə apardığı əməliyyatlardakı igidliyindən danışıb, şəhidlərin hər zaman hörmət və ehtiramla yad olunacağını bildirib.

Pakistan daxili işlər nazirinin müavini Rizvan Malik çıxışında Azərbaycan şəhidlərinin öz canlarını Vətən uğrunda fəda verdiyini, şəhidlərin xatirəsinin əziz tutulduğunu, Azərbaycanda olduğu kimi, Pakistanda da şəhid ailələrinə daim diqqət və qayğı göstərildiyini bildirib. Azərbaycanla yanaşı, Pakistanın da terrorla mübarizədə böyük qurbanlar verdiyini bildirən daxili işlər nazirinin müavini hər iki ölkənin bundan sonra da terrora və ekstremizmə qarşı mübarizəni davam etdirəcəyini, ölkələrimizdə sülh və sabitliyin nəzarət altında saxlanacağını diqqətə çatdırıb.

Mərkəzi Asiya və Azərbaycan üzrə ekspert Mahmud ul Həsən Xan öz istiqlaliyyətini tələb etmək üçün dinc etiraz hərəkatı keçirən Azərbaycan xalqına qarşı sovet imperiyasının xüsusi qəddarlıqla törətdiyi 20 Yanvar qırğınının insan haqlarının birbaşa pozulması və cinayət olduğunu söyləyib. O, bu hadisənin yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün mühüm nəticələrə səbəb olduğunu, SSRİ-nin dağılması ilə Azərbaycanın və digər postsovet ölkələrinin azadlığa qovuşduğunu faktlarla izah edib, ulu öndər Heydər Əliyevin o zaman SSRİ-nin rəhbərliyinə qarşı tarixi bəyanatının, göstərdiyi qətiyyət və fədakarlığın əvəzedilməz olduğunu vurğulayıb.

Azərbaycan tarixində çox mühüm yeri olan 20 Yanvar hadisələrinin Azərbaycan xalqının yaddaşında hüznlü, eyni zamanda, şərəfli gün kimi qaldığını bildirən Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə 20 Yanvar hadisələrinin motivlərinə toxunub, tarixboyu, eləcə də 1987-ci ilin sonlarından etibarən SSRİ rəhbərliyinin bilavasitə dəstəyi ilə ermənilərin Azərbaycan xalqına qarşı qətllər və etnik təmizləmə siyasəti həyata keçirdiyini bildirib. Səfir Ermənistandan yüz minlərlə azərbaycanlının deportasiya olunması, həmçinin Azərbaycanın ərazisi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi kimi sərsəm ideya və haqsızlıqlara qarşı 1990-cı ilin əvvəllərində Bakıda başlayan dinc nümayişlərin yanvarın 20-də sovet ordusu tərəfindən kütləvi qırğınla yatırılmasına cəhd edildiyini diqqətə çatdırıb. Səfir sovet rəhbərliyi tərəfindən əvvəlcədən planlaşdırılan, çoxsaylı erməni əsilli xüsusi təyinatlıların da cəlb olunduğu sovet ordusunun hərbi birləşmələrinin törətdiyi bu qırğının Azərbaycan xalqının azadlıq əzmini qırmaq və sovet rejimini xilas etmək məqsədi daşıdığını, lakin tam əks nəticə verərək Azərbaycan xalqını qətiyyətlə birləşdirdiyini, müstəqilliyin labüdlüyünü sübut etdiyini bildirib. O, sovet rəhbərliyinin və mediasının o zaman hadisələri hətta ört-basdır etməyə çalışdığını, lakin bütün təzyiqlərə baxmayaraq, ümummilli lider Heydər Əliyevin cəsarətli bəyanatı nəticəsində hadisənin təşkilatçılarının və nəticələrinin dünya ictimaiyyətinə çatdırıldığını qeyd edib.

Səfir ermənilərin terrorizm və etnik təmizləmə siyasətinin hazırda da davam etdiyini, Azərbaycanın Pakistanı yaxşı anladığını, qardaş Pakistanın da terrorizm və ekstremizmlə mübarizədə böyük qurbanlar verdiyini, fədakarlıqlar göstərdiyini diqqətə çatdırıb. Diplomat Azərbaycan və Pakistan şəhidlərinin qəhrəmanlıq və fədakarlığının hər iki xalq üçün qürur və şərəf mənbəyi, eləcə də gələcək nəsillər üçün birlik və həmrəylik yolunda qətiyyət və əzm örnəyi olaraq qalacağını vurğulayıb. Tədbirdə Pakistanın şəhid ailələrinin övladları tərəfindən şəhidlərlə bağlı təqdim olunan səhnəciklər iştirakçılarda hüznlü təəssürat yaradıb, polis orkestrinin ifası mərasim iştirakçılar tərəfindən maraqla qarşılanıb. Mərasimdə ehsan süfrəsi açılıb.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***İslamabad***

# Regionların qazlaşdırılması və nəticə etibarı ilə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramın icrası ən vacib məsələlərdən biridir

## "Azəriqaz" İstehsalat Birliyinin Baş direktoru Əkbər Hacıyevin yap.org.az-a müsahibəsi

***- Əkbər müəllim, 2017-ci il Azərbaycanın sosial-iqtisadi həyatı üçün bir sıra uğurlarla yadda qaldı. Ötən il "Azəriqaz" İB tərəfindən qaz təsərrüfatının inkişafı ilə bağlı hansı işlər görülüb?***

- Ötən illərdə olduğu kimi 2017-ci il ərzində əvvəlki illərdə başlanılmış layihələr davam etdirilməklə yanaşı, yeni layihələrə də start verilmişdir. Həyata keçirilən layihələr, eləcədə təsərrüfatda aparılan islahatlar və təkmilləşdirmə tədbirləri qaz təsərrüfatının müasirləşməsini və yenidən qurulmasını sürətləndirməklə yanaşı istehlakçıların fasiləsiz və dayanıqlı təbii qazla təmin olunmalarında mühüm rol oynamışdır.

Onu da bildirim ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq 2017-cı il ərzində təbii qaz təminatının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, qazın uçot sisteminin təkmilləşdirilməsi, qaz təsərrüfatının idarə olunmasında mövcud informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, qazla təmin edilən istehlakçı sayının artırılması, bilavasitə qaz təsərrüfatı ilə məşğul olan qurumların maddi-texniki bazasının möhkəmləndirilməsi və s. tədbirlər də həyata keçirilmişdir.

Əhalinin təbii qazla təmin edilməsi işlərinin icrası əsasən ölkənin mövcud qaz şəbəkəsi sisteminin təkmilləşdirilməsi, zəruri hallarda onun ayrı-ayrı hissələrinin yenidən qurulması, avadanlıqların yeniləşdirilməsi və istismara yararlı halda saxlanılmasına yönəldilmiş texnoloji, texniki tədbirlərin görülməsi, yeni qaz kəmərlərinin tikintisi və zəruri avadanlıqların quraşdırılması və payız-qış mövsümündə tələbata uyğun səviyyədə qazın verilməsinə yönəldilmiş işlərdə davamlı şəkildə aparılmışdır.

Ölkənin bütün regionlarının qazlaşdırılması, əvvəllər qazla təmin olunmuş, lakin sonradan qaz təchizatı dayandırılmış bölgələrin qaz təchizatının bərpası, yeni yaşayış məntəqələrinə və yaşayış massivlərinə təbii qazın verilməsi və nəticə etibarı ilə regionların sosial - iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramın icrası da ötən il ən vacib məsələlərdən biri olmuşdur.

2017-ci il ərzindədə əhalinin və digər istehlakçıların normal və təhlükəsiz qaz təchizatının təmin olunması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpası, qaz təchizatı şəbəkəsinin əsaslı təmiri kimi məsələlərə xüsusi diqqət yetirilmişdir. İlk növbədə qazlaşdırma və qaz təminatının bərpası işləri geniş-miqyaslı xarakter almış və ölkənin bütün bölgələrini əhatə etmişdir. Yeni qazlaşdırma və qaz təminatının bərpası istiqamətində işlərin nəticəsi olaraq, ötən il ərzində Ağcabədi rayonu 78.1 km, Bərdə rayonu 103.5 km, Beyləqan rayonu 101.9 km, Biləsuvar rayonu 259.47 km, Göyçay rayonu 118.49 km, Göygöl rayonu 144.22 km, Kürdəmir rayonu 43.58 km, Lerik rayonu 44.02 km, Masallı rayonu 110.32 km, Quba rayonu 42.02 km, Saatlı rayonu 158.85 km, Sabirabad rayonu 68.55 km, Şəki rayonu 80.5 km, Ucar rayonu 155.96 km, Xaçmaz rayonu 213.03 km və s. uzunluğunda müxtəlif diametrli polietilen və metal borularla daşıyıcı və kənddaxili qaz xətləri çəkilmişdir.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün Birlik tərəfindən 2017-ci il ərzində 1886 km yeni qaz kəməri quraşdırılmış, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 221 km qaz kəməri əsaslı təmir olunmuşdur. Aparılan tikinti-quraşdırma işləri nəticəsində Goranboy, Ağcabədi, Ağstafa, Bərdə, Şəki, Ucar, Quba, Qusar, Xaçmaz, Şamaxı, Oğuz, İmişli, Beyləqan, Saatlı, Sabirabad, Lerik, Biləsuvar, Cəlilabad, Masallı və Astara rayonları üzrə 56 yaşayış məntəqəsi qazlaşdırılaraq təbii qazla təmin edilmişdir.

***- Qazlaşdırılmış və ya qaz təminatı bərpa edilmiş yaşayış məntəqələri üzrə ötən il nə qədər abonent qeydiyyata alınmışdır?***

- Ümumilikdə, istehlakçilarin fasiləsiz və keyfiyyətli təbii qazla təchiz edilməsi, eləcə də abonent bazasının daha da genişləndirilməsi istiqamətində görülən işlərin nəticəsi olaraq, 2018-ci ilin yanvar ayının 1-nə olan tarixə ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 097 293-ə çatmışdır. Qeyd edək ki, 2017-cı il ərzində İB-də əhali sektoru üzrə 93 350 yeni abonent qeydiyyata alınmışdır ki, bunun da 48 877-i Bakı, Abşeron və Sumqayıt, 44 473-ü isə regionlar üzrədir. Yeni abonentlərin sayının artmasına cari ildə qazlaşdırılmış və qaz təminatı bərpa olunmuş yaşayış məntəqələri də mühüm rol oynayır.



Həmçinin, 01 yanvar 2018-ci il tarixə olan məlumata görə qeyri-əhali sektoru üzrə 468 məscid və dini məbədə təbii qazdan istifadə üçün limit ayrılmışdır.

Onu da bildirmək lazımdır ki, smart kart tipli qaz sayğaclarının əhatə dairəsinin genişlənməsi və ödənişlərlə bağlı əməliyyatların artması ilə əlaqədar yarana biləcək texniki problemlərin meydana çıxmasının qarşısını almaq məqsədi ilə yeniliklər tətbiq edilmiş və müvafiq qaydada islahatlar aparılmışdır.

2017-ci il ərzində Birliyin operativ fəaliyyətinin nəticəsi olaraq, hüquqi və fiziki şəxslərin müraciətləri araşdırılmış və müvafiq sənədləri təqdim etmiş 483 çoxmərtəbəli binanın qazının açılması təmin olunmuşdur. Bu isə ümumilikdə,21 445 mənzili əhatə edir. Ümumiyyətlə, İB qazın satışı ilə məşğul olan bir qurum olaraq zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binaya ən qısa müddətdə qaz açılmasının təmin olunmasında hər zaman maraqlıdır.

***- Layihə-smeta və texniki şərtlərin hazırlanması üzrə aparılan işlər qənaətbəxşdirmi?***

- Ötən il Birlik layihə-smeta sənədlərinin ekspertizası, razılaşdırılması və texniki şərtlərin hazırlanması məsələləri üzrə fəaliyyətini davam etdirib. Belə ki, fiziki və hüquqi şəxslərin müraciətləri əsasında qeyri-yaşayış sahələrinin (obyektlərin) qazlaşdırılması üçün 4575 ədəd texniki şərt verilmişdir. Birliyin sifarişi əsasında tikintisi nəzərdə tutulan qaz təchizatı obyektlərinin və qurğularının, eləcə də yaşayış məntəqələrinin, daşıyıcı qaz kəmərlərinin və digər təyinatlı bina, tikili və qurğuların layihələndirilməsi üçün 110 ədəd texniki şərt, texniki tapşırıq və layihə tapşırıqları hazırlanmışdır.

Layihə-smeta sənədlərinin hazırlanması sahəsi üzrə də mühüm işlər görülmüşdür. Ötən il ərzində "Azəriqaz" İB-nin Layihə- Konstruktor Bürosu tərəfindən 5391 layihə-smeta sənədi hazırlanaraq, Birliyə və digər sifarişçilərə təhvil verilmişdir ki, bunun da 264 kənd və qəsəbələrin qazlaşdırılması, 549 obyektlərin təmiri, 4575 sənaye və kommunal, məişət obyektləri və qeyri-yaşayış sahələri, 3 inzibati binalar, anbar binaları və s. tikinti işləri üzrədir.

2017-ci il ərzində 184 ədəd fiziki və hüquqi şəxslərin müraciətləri əsasında hazırlanan qeyri-yaşayış sahəsinin (obyektlərin) layihə-smeta sənədləri razılaşdırılmışdır. Bundan başqa, ötən il 495 ədəd Birliyin sifarişi ilə hazırlanmış layihə-smeta sənədi razılaşdırılmışdır.

***- Ümumiyyətlə, qaz itkilərinin qarşısının alınması üçün hansı işlər görülür?***

- Birlik tərəfindən ilk növbədə kənd və qəsəbələrin daşıyıcı qaz kəmərlərinin yenidən qurulması, kəmərlər üzərində quraşdırılmış istismar müddəti bitmiş avadanlıqların yeniləri ilə əvəz edilməsi, sonrakı mərhələdə isə mövcud qaz paylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması, eləcə də hər bir istehlakçının mənzilinə qaz sayğaclarının quraşdırılması işləri davam etdirilib. Respublika ərazisində, o cümlədən Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması və istismara yararsız vəziyyətdə olan qaz kəmərlərinin yenidənqurulması məqsədi ilə 2017-ci ilin yanvar-dekabr ayları ərzində görülmüş məqsədyönlü işlər öz müsbət nəticəsini göstərmişdir.

Respublika ərazisində kənd və qəsəbələrin, yeni yaşayış massivlərinin qazlaşdırılması, eləcə də yeni istehsal təyinatlı obyektlərin istismara verilməsi abonentlərin sayının və təbii qaza olan tələbatın artmasına səbəb olmuşdur.

"Azəriqaz" İstehsalat Birliyi tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2017-cı ilin 12 ayı ərzində 2016-ci ilin müvafiq dövrü ilə müqayisədə Birliyin qaz təchizatı şəbəkəsində qazın itkisi azalmışdır. Qaz itkilərinin qarşısının alınması üçün bundan sonrada lazimi tədbirlərin görülməsi davam etdiriləcəkdir.

***- Qaz təchizatı şəbəkəsinin ahəngdar işləməsi üçün nə kimi işlər həyata keçirilir?***

- 2017-2018-ci illərin payız-qış mövsümündə istehsalatın ahəngdar işləməsini, istehlakçıların fasiləsiz təbii qaz təchizatını təmin etmək məqsədi ilə Bakı RQİD, RQİİ-lər və Sumqayıt QİS tərəfindən daxili imkanlar hesabına cari il ərzində 352,02 km uzunluğunda müxtəlif diametrli qaz xətləri çəkilərək yenisi ilə əvəz edilmiş, 440 ədəd siyirtmə quraşdırılmış, istismara yararsız vəziyyətdə olan, eləcə də istehlakçıların tələbatına uyğun olmayan 1254 ədəd qaz tənzimləyicisi təhlükəsizlik baxımından daha yüksək texniki göstəricilərə cavab verən tənzimləyicilərlə əvəz edilmişdir. 2017-2018-ci illərin payız-qış mövsümündə istehlakçıların dayanıqlı, fasiləsiz təbii qaz təchizatının təmin edilməsi məqsədi ilə "Azəriqaz" İstehsalat Birliyi tərəfindən hazırlanmış tədbirlər proqramına uyğun olaraq 65549,1 p/m uzunluğunda müxtəlif diametrli qaz xətləri təmir edilmiş, eləcə də yeni qaz xətləri çəkilmiş, 307 ədəd qaz tənzimləyici quraşdırılmış və 151 ədəd siyirtmə yenisi ilə əvəz edilmişdir.

Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "bir pilləli" tənzimləmə sistemi tətbiq edilmişdir ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

# Regionların qazlaşdırılması və nəticə etibarı ilə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramın icrası ən vacib məsələlərdən biridir

## "Azəriqaz" İstehsalat Birliyinin Baş direktoru Əkbər Hacıyevin yap.org.az-a müsahibəsi

Qeyd edim ki, istehlakçıların dayanıqlı qaz təchizatının təmin edilməsi, təbii qazdan təhlükəsiz istifadə olunması və "Qaz təsərrüfatında texniki istismar qaydaları"nın tələblərinin yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi məqsədi ilə televiziya kanallarında videoçarxlar, mətbuatda, kütləvi informasiya vasitələrində mütəxəssislərin iştirakı ilə çıxışlar, insanların kütləvi toplaşdığı yerlərdə, küçə və meydanlarda, dayanacaqlarda elanların, plakatların, lövhələrin vurulması təşkil edilir və bu istiqamətdə əməli tədbirlərin həyata keçirilməsi məqsədi ilə aidiyyatı strukturlara müvafiq tapşırıqlar verilmişdir. Eyni zamanda struktur bölmələrdə əmək və icra intizamının möhkəmləndirilməsi, qaz tənzimləyici qurğularda tənzimləmə işlərinin aparılması, texnoloji rejimə uyğun olaraq şəbəkəyə qazın ötürülməsi daim nəzarətdə saxlanılır, abonentlərin növbədənkənar təlimatlandırılması və qaz şəbəkəsinə texniki baxışların keçirilməsi müvafiq qaydada təmin edilir.

Respublikanın qaz təsərrüfatının inkişaf etdirilməsi məqsədi ilə qaz şəbəkəsinin yenidənqurulması, istehlakçıların qaz təchizatının bərpası ilə yanaşı yeni qaz kəmərlərinin çəkilməsi, yaşayış sahələrinin qazlaşdırılması, təbii qazdan səmərəli istifadə edilməsi "Azəriqaz" İstehsalat Birliyinin başlıca vəzifələrindən biri olmuşdur və bu istiqamətdə işlərin icrası davam etdirilir.

***- Əkbər müəllim, beynəlxalq standartların tətbiqi, əməyin mühafizə olunması, işçilərin sağlamlığının qorunması, ekologiya və keyfiyyət sahəsində hansı işlər həyata keçirilib?***

- Ötən il ərzində "Azəriqaz" İB-də əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizə olunması, sağlamlığın qorunması, təhlükəsizlik və yanğın texnikası qaydalarının təmin edilməsi məqsədilə "Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi"nin, Azərbaycan Respublikasının Ekologiya Qanunvericiliyinin, Beynəlxalq Standartların tələblərinə uyğun olaraq bir sıra işlər görülmüşdür.

Belə ki, 2017-ci ildə Birliyin idarəetmə aparatına və tabeli təşkilatlarına yeni işə qəbul edilmiş işçilərə və praktikaya göndərilmiş tələbələrə ümumilikdə 237 nəfərə giriş təlimatı keçirilmiş və istehsalat sahələrinə göndərilmiş, eyni zamanda 280 ilkin - 976 təkrar olmaqla ümumilikdə 1256 işçinin biliyi müvafiq qaydalar əsasında yoxlanılaraq qiymətləndirilmişdir.

Birliyin struktur bölmələrində əmək şəraiti vəziyyətinin yoxlanılması məqsədilə müvafiq əmrlə yaradılmış Əməyin təhlükəsizliyi üzrə Daimi Fəaliyyət göstərən Komissiyanın (DFK) 2017-ci ilin iş planı əsasında Birliyin 15 tabeli təşkilatında yoxlama keçirilmiş, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görülmüş və yerlərdə aidiyyəti mütəxəssislərə lazımi metodiki köməklik göstərilmişdir.

Qeyd edilən dövr ərzində Birliyin strukturuna daxil olan 15 tabeli təşkilatda 130 bənddən ibarət yoxlama proqramı əsasında əməyin mühafizəsi, texniki və yanğın təhlükəsizliyi, ekologiya sahəsində və beynəlxalq standartların tətbiqi ilə əlaqədar aparılan işlərin icra vəziyyəti araşdırılaq yerlərdə aidiyyəti mütəxəssislərə köməklik göstərilmiş və aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün həmin təşkilatların rəhbərlərinə rəsmi qaydada tapşırıqlar verilmişdir. Həmçinin qəza-bərpa və təmir-tikinti işlərinin yerinə yetirilməsi zamanı əməyin müafizəsi və yanğın təhlükəsizliyinə riayət olunmasına nəzarət edilməsi məqsədilə yerlərdə reydlər keçirilmişdir. Keçirilən reydlərin nəticəsi olaraq nöqsanlara yol vermiş aidiyyəti işçilərə xəbərdarlıq kartları təqdim edilmişdir.

Əmək və icra intizamının yüksəldilməsi, əməyin mühafizəsi, texniki və yanğın təhlükəsizliyi qaydalarına nəzarətin gücləndirilməsi məqsədilə müvafiq əmrlə təsdiq olunmuş kart sisteminə uyğun olaraq 2017-ci il ərzində əməyin mühafizəsi, təhlükəsizlik texnikası qaydalarını və icra intizamını pozmuş ayrı-ayrı struktur bölmələrdə işləyən işçilərə xəbərdarlıq kartları, vəzifə funksiyalarının icrası zamanı yüksək peşəkarlıq nümayiş etdirdiklərinə və əməyin mühafizəsi sahəsində nümunəvi davranışlarına görə işçilərə isə fərqlənmə kartları təqdim edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Tibbi profilaktik müayinələrin təkmilləşdirilməsi haqqında" 21.01.1998-ci il tarixli 13 №-li və ARDNŞ-in "İşçilərin tibbi müayinədən keçirilməsi haqqında" 07.03.2011-ci il tarixli 27 №-li əmrlərinin icrası olaraq Birlik üzrə 2017-ci il ərzində dövri tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuş işçilərdən 574 nəfəri tibbi müayinədən keçmişdir.

Birlik tərəfindən təmir-quraşdırılma və təmir-bərpa işləri aparılan zaman işçilər tərəfindən təhlükəsizlik texnikası qaydalarına riayət edilməsi vəziyyətinə nəzarət edilmiş, onların xüsusi geyim və fərdi mühafizə vasitələrindən istifadə etməsi daim diqqətdə saxlanılmış və ciddi qayda pozuntularına yol verilmiş tikinti sahələrində həmin pozuntular aradan qaldırılana qədər aparılan işlər müvəqqəti olaraq dayandırılmışdır.

Bundan əlavə Birliyin istehsalat sahələrində formalaşan müxtəlif növ 80 ton tullantı çeşidlənərək "Tullantı Mərkəzi"nə, 4283,2 tona yaxın qara metal və 9,87 ton əlvan metal qırıntısı aidiyyəti üzrə təhvil verilmişdir. SOCAR-ın "Ekoloji təbliğat və maarifləndirməyə dair 2016-2017-ci illər üzrə Tədbirlər Planı"na əsasən "Azəriqaz" İB-nin tabeli təşkilatlarında ekoloji təbliğat və maarifləndirmə işlərinin aparılması məqsədilə regional qaz istismarı idarələrində 2017-ci ildə 391 nəfər dinləyicinin iştirakı ilə ekoloji maarifləndirmə işləri aparılmış, "İnsan və ətraf mühit, ekoloji mədəniyyət", "müasir ekologiyanın problemləri" mövzularında təqdimatlar keçirilmişdir.

İşçilərin təhlükəli və zərərli istehsalat amillərindən qorunması, zədələnmə hallarının və peşə xəstəliklərinin azaldılması üçün "Azəriqaz" İB-də çalışan işçilər "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin işçilərinə xüsusi geyim və digər fərdi mühafizə vasitələrinin pulsuz verilməsi normaları" əsasında 2017-ci ildə 2774 dəst xüsusi geyim, 1522 cüt xüsusi ayaqqabı, 6587 ədəd müxtəlif təyinatlı fərdi mühafizə və xilasedici vasitələrlə təmin edilmişdirlər. SOCAR-ın Əmək şəraiti normalarının işlənilməsi İdarəsi tərəfindən "Azəriqaz" İB üzrə 268 zərərli hesab edilmiş iş yeri müəyyən edilmiş, həmin yerlərdə işləyən fəhlə və qulluqçulara pulsuz süd və ya eyni keyfiyyətə malik olan qida məhsullarının verilməsi qaydasına uyğun olaraq 2017-ci ildə 40409 litr süd məhsulu verilmişdir.

2017-ci ildə də Tabeli təşkilatlarda həyata keçirilən ayrı-ayrı işlərin vahid formada icra olunmasının təmin edilməsi və işçilərin öyrədilməsi, habelə təcrübə mübadiləsinin təşkili üçün "İstehsalat xarekterli işlər üzrə təlimlərin təşkili və təcrübə mübadiləsi haqqında" 27.04.2017-ci il tarixli S O C A R 1 - 729000303000040020A00270 saylı saylı əmrin icrası olaraq TE-SİEŞ-nin əməkdaşları tərəfindən tərtib olunmuş qrafik və müxtəlif mövzular əsasında 11 tabeli təşkilatlarda təlimlər təşkil olunmuşdur. Təlimlərdə ümumilikdə 462 nəfər mühəndis-texniki işçinin maarifləndirməsi həyata keçirilmişdir. Təlimlər qrafikdə nəzərdə tutulmuş hər bir mövzu üzrə video slaytlar şəkilində hazırlanmış və yerlərdə keçirilən təlimlərin Birliyin rəhbərliyi tərəfindən video görüntü şəklində izlənilməsi həyata keçirilmişdir.

Ətraf mühitin mühafizəsi və insanların sağlam təbii mühitdə yaşaması istiqamətində aparılan işlər sırasında yaşıllaşdırma işlərinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq bu sahəyə xüsusi diqqət yetirilmiş və 2017-ci ildə 2250 ədəd müxtəlif növ ağac tingləri, dekorativ kollar və güllər əkilmişdir.

"Azəriqaz" İB-də tətbiq edilən Beynəlxalq standartlar üzrə 2017-ci ilin birinci yarımilliyində ISO 10002 və ikinci yarımilliyində digər ISO 9001, ISO 14001, OHSAS 18001 və ISO 50001 standartlarının tələblərinin inkişaf etdirilməsi və istehsalat sahələri üzrə tətbiqinin yoxlanılması məqsədilə müvafiq əmrlə yaradılmış audit qrupu tərəfindən Birliyin 39 struktur bölmə üzrə daxili audit keçirilmişdir. Audit nəticəsində 3 ədəd ISO 10002 və 20 ədəd isə digər 4 standart üzrə düzəldiciönləyici fəaliyyət açılmış və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılmışdır. Eyni zamanda hər bir standart üzrə 2017-ci ildə Türk Standartları institutu tərəfindən ikinci tərəf xarici audit keçirilmiş və Birlik üzrə həyata keçirilmiş işlərin beynəlxaql standartların tələblərinin uyğun olduğu qeyd edilmiş və müsbət qiymətləndirilmişdir.

"Azəriqaz" İstehsalat Birliyinin əməkdaşlarının əməyin mühafizəsi, ətraf mühitin qorunması və təhlükəsizlik texnikası üzrə bilik səviyyələrinin artırılması məqsədilə il ərzində tələbat üzrə Birliyin tabeli təşkilatlarda çalışan 14 nəfər aidiyyəti işçisi SOCAR-ın Təlim, tədris və sertifikatlaşma İdarəsində təlimlərə cəlb edilmişdir.

Ümumilikdə Birlik üzrə əməyin mühafizəsi sahəsində həyata keçirilmiş qabaqlayıcı və maarifləndirmə işlərinin nəticəsində ötən il ərzində Birlikdə insan itkisi ilə nəticələnən hadisələr baş verməmişdir.

***- "Azəriqaz" İB-nin "ASAN xidmət"lə və "ASAN Kommunal"la əməkdaşlığı hansı səviyyədədir?***

- SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 2017-ci il ərzində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində istehlakçılardan daxil olan müraciətlər əsasında smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçılara müvafiq xidmətlərin göstərilməsini, müraciətlərdən asılı olaraq şöbələrdən tələb olunan məlumatların əldə olunmasını və bu məlumatlar əsasında istehlakçılara xidmətlərin göstərilməsini təmin etmişdir.

Ötən ilin yanvar-dekabr ayları ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı "ASAN Komunal", eləcə də 1, 2, 3, 4, 5 saylı "ASAN xidmət" mərkəzlərinə və "ASAN səyyar" xidmətinə, bundan əlavə Bərdə, Sabirabad, Masallı, Qəbələ rayonlarında, həmçinin Sumqayıt və Gəncə şəhərində yerləşən "ASAN xidmət" mərkəzlərinə ümumilikdə 262 666 müraciət daxil olmuş və bu müraciətlərin icrası tam təmin olunmuşdur.

Onu da bildirim ki, Birliyin Bakı şəhəri və Abşeron rayonu üzrə xidmət sahələrində istehlakçılara göstərilən bütün xidmətlər artıq "ASAN Kommunal"mərkəzləri vasitəsilə həyata keçirilir.

Əsas hədəfimiz və məqsədimiz "ASAN Kommunal"mərkəzləri vasitəsilə abonentlərə yüksək səviyyədə xidmətin göstərilməsi, həmçinin regionlarda açılacaq "Asan kommunal"mərkəzlərində Azəriqaz İB tərəfindən müvafiq xidmətlərin təşkilidir.

Sonda qeyd edim ki, istehlakçılarla münasibətlərin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Birlik bu istiqamətlərdə fəaliyyətini bundan sonrada davam etdirəcəkdir.

# Qeyri-neft sektorunun sürətli inkişafı balanslaşdırılmış sosial-iqtisadi siyasətin təzahürüdür

***Azərbaycanda qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına gətirib çıxarıb. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülür.***



Azərbaycan Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib. "Hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata və davamlı inkişafa nail olmaqla, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır"- deyən ölkə başçısının iradəsi və göstərişləri ilə ölkəmizdə ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Prezidentinin sərəncamları ilə, ölkənin sosial-mədəni və iqtisadi sahələrində olduğu kimi, kənd təsərrüfatının inkişafına dair qəbul olunmuş dövlət proqramları, müvafiq qanunvericilik aktları ölkə ərazisində olan torpaq ehtiyatlarında səmərəli şəkildə istifadə üçün geniş imkanlar açıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyri-neft sektorunun inkişafı istiqamətində və ərzaq təhlükəsizliyi baxımından, xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetirilməsinin nəzərdə tutulması da, bu sahəyə göstərilən diqqətin daha bir nümunəsidir.

## "ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İNDEKSİNƏ GÖRƏ AZƏRBAYCAN 57-Cİ YERDƏDİR"

Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi fərman və sərəncamlar bu sahənin inkişafına yönəlib. Pambıqçılığın, taxılçılığın, baramaçılığın və tütünçülüyün inkişafında uğurlar əldə olunub. Kənd təsərrüfatına dövlət dəstəyinin daha da artırılması, pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün və heyvandarlığın kompleks inkişafının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi üçün 2017-ci ildə 581 milyon manat vəsait ayrılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kənd təsərrüfatının 4,1 faiz artdığını bildirib: "Bu, yaxşı göstəricidir. Biz həm ərzaq təhlükəsizliyi məsələlərini həll edirik, həm də kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahəsini inkişaf etdiririk. Qeyd etməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə, Azərbaycan 57-ci yerdədir. Bu, yaxşı göstəricidir. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə, taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək ki, biz keçən il olduğu kimi, bu il də idxaldan asılılığı azaldaq və ixracyönümlü məhsulların həcmi artsın".

Təbii ki, kənd təsərrüfatı sahəsinə ayrılan dövlət diqqətinin təzahürüdür ki, bu irəliləyişlər əldə olunub. Kənd təsərrüfatının inkişafı üçün yola saldığımız ildə ölkəmizə 10 min kənd təsərrüfatı texnikası gətirilib. "...Kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz", - deyən Cənab Prezident vurğulayıb ki, əlbəttə ki, rentabellilik olmalıdır: "Bəzi sahələr rentabelli sahələrdir, bəzi sahələr subsidiya hesabına yaşamalıdır. Bu, inkişaf etmiş ölkələrdə də belədir. Orada da subsidiyalar var, orada da dövlət fermerləri dəstəkləyir ki, ərzaq təhlükəsizliyi təmin edilsin və iş yerləri yaradılsın. Biz də bu yolla gedirik. Ona görə əgər hansısa kənd təsərrüfatı sahəsində istehsal o qədər də rentabelli deyilsə, bu, böyük faciə deyil, bundan faciə düzəltmək lazım deyil. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, bundan sonra hər şey yoluna düşəcək. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük".

## "ƏGƏR 2016-CI İLDƏ 3500 TON TÜTÜN TƏDARÜK OLUNMUŞDUSA, KEÇƏN İL BU RƏQƏM 5200 TONA ÇATIB"

İqtisadi əhəmiyyətinə görə Azərbaycanın ikinci texniki bitkisi sayılan tütünçülüyün inkişaf etdirilməsinə də dövlət başçısı tərəfindən diqqəti artırıb. "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ölkədə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirməsində əhəmiyyətli sənəddir. Bununla yanaşı, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə qeyd olunan Sənədə əsasən, tütün emalı ilə məşğul olan hüquqi şəxslərə müvafiq qaydada subsidiya müəyyən edilmişdir. Dövlət Proqramı ölkədə bu istiqamətdə aparılan işlərə təkan olub. Kifayət qədər nəticələr əldə olunub. Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, tütün istehsalına marağın daha artırılmasına səbəb olub.

Göründüyü kimi, son illər kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştlər və subsidiyalar, həmçinin, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin 2019-cu ilədək, torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilməsi ölkədə tütünçülüyün inkişafında əhəmiyyətli rol oynayıb. İclasdakı çıxışında ölkə başçısı tütünçülüyə göstərilən diqqətin öz bəhrəsini verdiyini bildirib: "Əgər 2016-cı ildə 3500 ton tütün tədarük olunmuşdusa, keçən il bu rəqəm 5200 tona çatıb". Cənab Prezident bu ildə tütünçülüklə bağlı bir çox önəmli tədbirlərin görüləcəyini, qurutma kameralarının alınacağını və fermerlərə əlavə dəstək veriləcəyini vurğulayıb: "Biz tütünçülüyün bərpasına çox yaxınıq və gələcəkdə tütünü, nəinki xammal kimi, hətta hazır məhsul - siqaret şəklində ixrac etməliyik".

Kənd təsərrüfatının digər sahələrində də sitrusçuluq, çayçılıq, çəltikçilik və s. sahələrində də inkişaf nəzərə çarpacaq dərəcədədir. Cənab Prezident qeyd edib ki, keçən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilmişdir və bir neçə Dövlət Proqramı qəbul edilmişdir. Bunun nəticəsidir ki, bu sahələrdə çox böyük inkişaf var: "Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ixrac potensialımızı artırır. Misal üçün, 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə, 35 min ton pambıq yığılıbdır. Yəni biz iki il ərzində, pambıq istehsalını, demək olar ki, səkkiz dəfə artırmışıq və 200 minə yaxın insan pambıqçılıq sahəsində çalışır və pul qazanır". Baramaçılıq sahəsində də diqqəti çəkən rəqəmlər bu sahənin inkişafının göstəricisidir. Belə ki, 2016-cı ildə 70 ton barama tədarük edilmişdirsə, 2017-ci ildə 245 ton barama tədarük edilib.

Qeyri-neft sektorunun inkişafına ayrılan diqqət bu nailiyyətlərə təkandır. Görülən bu və ya digər işlər Azərbaycan Prezidentinin apardığı balanslaşdırılmış sosial-iqtisadi siyasətin məntiqi nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları təlimlərə başlayıb



Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları üçün "Azərbaycan Hökumətinin ərzaq məhsulları və yem təhlükəsizliyinə rəsmi nəzarət sahəsində institusional potensialının gücləndirilməsi" layihəsi çərçivəsində üç həftəlik təlimlərə başlanılıb. Agentlikdən SİA-ya verilən xəbərə görə, Avropa İttifaqının Bakı nümayəndəliyinin təşkilatçılığı ilə həyata keçirilən təlimin məqsədi qida təhlükəsizliyi sahəsində institusional potensialın gücləndirilməsinə, qida zəncirinə nəzarət sahələrində beynəlxaq təcrübənin öyrənilməsinə yönəlib.

Təlim başlamazdan əvvəl Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli layihə çərçivəsində təlim keçəcək nümayəndə heyətini qəbul edib. Daha sonra layihə rəhbəri İan Goulding (Yan Quildinq) və təlimçi Alida Mahmudova qida təhlükəsizliyi ilə bağlı təcrübələrini agentliyin əməkdaşları ilə bölüşüblər. Layihə rəhbəri Yan Quildinq qida mühəndisliyi və marketinqi sahəsində ixtisaslaşıb. Təlimdə agentliyin "Təftiş və dövlət nəzarəti", "Risklərin idarə olunması", "Sertifikatlaşdırma və qeydiyyat", "Kommunikasiya və informasiya texnologiyaları" şöbələrinin rəhbərləri və əməkdaşları iştirak edib.

# Muxtar respublikada ümumi daxili məhsul istehsalı 1,5 faiz artıb

2017-ci ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 2 milyard 701 milyon manatdan artıq olub ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun dəyəri əvvəlki ilə nisbətən 3,6 faiz artaraq 5 min 990 manat olub. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ümumi daxili məhsulun tərkibində ilk yeri 27,6 faizlik payla sənaye tutub və maddi istehsalın payı 58,7 faiz təşkil edib. Ötən il muxtar respublikada 967 milyon 60 min manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricini 1,4 faiz üstələyib. Sənaye məhsulu istehsalının 96,1 faizi mallarin, 3,9 faizi isə xidmətlərin payına düşüb. Sənayenin dövlət sektorunda 49 milyon 878 min 900 manatlıq, qeyri-dövlət sektorunda isə 917 milyon 181 min 100 manatlıq məhsul istehsal olunub. İstehsal olunan sənaye məhsulunun 94,8 faizi özəl sektorun payına düşüb. 2017-ci ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 60 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 23 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilib. Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərib, 2017-ci ildə 321 milyon 841 min 600 ABŞ dolları dəyərində məhsul ixrac olunub.



# Dövlət Komissiyasının İşçi Qrupu ilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti arasında birgə Tədbirlər Planı imzalanıb

Cəzaçəkmə müəssisələrində anti-narkotik təbliğat işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu arasında 2018-ci il üçün birgə Tədbirlər Planı imzalanıb. Komissiyadan AZƏRTAC-a bildiriblər ki, Tədbirlər Planında keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyənləşdirilib. Cari il ərzində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, cəmiyyətə və insanların sağlamlığına ziyanı, QİÇS və digər viruslara yoluxma barədə tibbi-gigiyena, məhkumların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üçün onlara izahların verilməsi mövzusunda, eləcə də müvafiq videofilmlərin nümayişi və zəruri təbliğat materiallarının paylanılması ilə əlaqədar bir sıra tədbirlər keçiriləcək.

# Modern və yenilikçi ölkə olan Azərbaycan öz məhsullarını dünya bazarına çıxarır

***Siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. İnnovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənən Azərbaycanda qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün də, məqsədyönlü işlər davamlı olaraq, həyata keçirilir. Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və müvafiq hüquqi baza formalaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı və həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı.***




Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. Bu sahədə daha mühüm islahata imza atıldı. Belə ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan “ASAN xidmət” mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək “ASAN xidmət” mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Pilot layihə olduğu üçün 1 nömrəli “ASAN xidmət” Mərkəzinin xidmətlərindən ilkin mərhələdə paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarının sakinləri yararlandılar. 2013-cü il ərzində paytaxtın bir neçə rayonunda “ASAN xidmət” mərkəzləri istifadəyə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Bu gün ölkəmizin müxtəlif məkanlarında bu mərkəzlər fəaliyyət göstərir. Hazırda ölkəmizdə 12 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Miqyası günü-gündən genişlənən mərkəzlərin sayı artır. Eyni zamanda, “ASAN xidmət” səyyar şəkildə də vətəndaşlara xidmət göstərir. Azərbaycanın regionlarına səyyar təşkil olunan xidmətdən yüzlərlə insan yararlanır və dövlət tərəfindən yaradılan şəraitdən məmnun qalırlar.

Bu, onu göstərir ki, Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün Azərbaycan, nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən, əqli məhsullarını ixrac edir: “Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - “ASAN xidmət” ictimai münasibətlərin və xidmətlərin müasir modelidir. Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi “ASAN xidmət”i bir çox ölkələr üçün cəlbedici edib”.

Müasir dövrümüzdə “ASAN xidmət”i dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan “ASAN xidmət” dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Bu gün “ASAN xidmət” Mərkəzində vətəndaşların rahatlığı, şəffaflıq təmin edilir və “bir pəncərə” prinsipi tətbiq olunur. Əlbətə ki, bu dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin “dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir” yanaşmasının formalaşdırılmasına da müsbət təsirini göstərir.

## “MƏN GÖSTƏRİŞ VERMİŞƏM Kİ, BU İL BEŞ ŞƏHƏRDƏ “ASAN XİDMƏT” MƏRKƏZİNİN TİKİNTİSİNƏ BAŞLANILSIN”

Milyonlarla insanın müraciət etdiyi bu xidmət bürokratiyasız, korrupsiyasız, rahat və mədəni şəkildə gözəl xidmətlər həyata keçirir. “ASAN xidmət” qısa bir müddətdə uğur qazanıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyev vətəndaşların rahatlığını təmin edən mərkəz haqqında belə deyib: “ASAN xidmət”, “doğrudan da, ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub. Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu, doğrudan da, çox böyük hadisədir”.

Bu gün ölkəmizdə “ASAN xidmət”lərin sayı artır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısının vurğuladığı kimi, bu il üç “ASAN xidmət” Mərkəzi fəaliyyətə başlayacaq - Mingəçevir, İmişli və Şəki şəhərində. Beləliklə, “ASAN xidmət” mərkəzlərinin sayı 15-ə çatacaq: “Eyni zamanda, mən göstəriş vermişəm ki, bu il beş şəhərdə “ASAN xidmət” Mərkəzinin tikintisinə başlanılsın. Onlar yəqin ki, 2019-cu ildə istifadəyə veriləcək. Beləliklə, bir ildən sonra bizim 20 “ASAN xidmət” Mərkəzimiz olacaq. Bu günə qədər “ASAN xidmət” mərkəzlərinə 20 milyona yaxın müraciət daxil olub. “ASAN xidmət” ictimai xidmət sahəsində çox ciddi dönüş yaratmışdır”.

## DÖVLƏT İDARƏÇİLİYİ ÇOX GENİŞ SAHƏDİR VƏ OPTİMALLAŞDIRILMASI ZƏRURİDİR

Azərbaycanın “ASAN xidmət” modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var.”ASAN” Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülüb. Dünya mətbuatı da Azərbaycanın bu və ya digər uğurlarına biganə qala bilmir. Bu günlərdə Monteneqronun nüfuzlu “CdM” informasiya portalında “Dövlət idarəçiliyi çox geniş sahədir, optimallaşdırılması zəruridir” adlı məqalədə Azərbaycan brendi “ASAN xidmət”dən bəhs olunub. Monteneqronun dövlət idarəçiliyi naziri xanım Suzana Pribiloviç “CdM” informasiya portalına verdiyi müsahibəsində qeyd edib ki, nazirlik elektron hökumət portalının təkmilləşməsi istiqamətində fəaliyyətini davam etdirəcək, eləcə də, Monteneqroda ən yaxşı dünya təcrübələrinə uyğun olan vahid məkan prinsipinin tətbiq olunması bu fəaliyyətə daxildir. S.Pribiloviç Azərbaycanın “ASAN xidmət” təcrübəsinə toxunaraq deyib ki, mən şadam ki, dövlət xidmətlərinin çatdırılması sahəsində biz Azərbaycan modelindən istifadə edəcəyik: “Orada olarkən BMT tərəfindən tanınan və mükafata layiq görülmüş model ilə şəxsən tanış olmaq şansım da oldu. Bu sistemin xüsusiyyəti vətəndaşın hər şeydən üstün olduğunu vurğulamasıdır ki, bu da bizim nail olmaq istədiyimiz bir məqamdır”.

## MÜASİR DÜNYAMIZDA AZƏRBAYCAN YENİLİKLƏRİ İLƏ DÜNYANI TƏƏCCÜBLƏNDİRİR

Göründüyü kimi, bu gün Azərbaycan dünyaya inteqasiya edir, öz məhsullarını dünya bazarına çıxarır, modern və yenilikçi ölkə olaraq dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Əvvəllər yeni texnologiyalar və yeniliklər xaricdən Azərbaycana gətirildiyi halda, müasir dünyamızda Azərbaycan bu yeniliklərlə dünyanı təəccübləndirir. İnkişaf etmiş ölkələr intellektual məhsulun sahibi kimi çıxış edirdilərsə, bu gün Azərbaycanda intellektual məhsulu yaradılıb. Cənab İlham Əliyev “ASAN xidməti” xalqımızın intellektual səviyyəsinin və Azərbaycanın inamlı inkişafının göstəricisi kimi dəyərləndirir.

Ümumiyyətlə, bu gün Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatın firavanlığına yönəlib. Buna Azərbaycanın, bütövlükdə, inkişafı imkan verir. “Ölkəmiz müasirləşir və inkişaf edir. “ASAN xidmət”in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar,” - deyən Cənab İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə “ASAN xidmət”in çox mühüm rol oynadığını vurğulayıb. Eyni zamanda, bu mərkəzdə yeni texnologiyalar və innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin və yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

***Zümrüd BAYRAMOVA***

# "Həmsədrlər də yaxşı anlayırlar"

## Tahir Mirkişili: "ATƏT-in Minsk Qrupu uzun müddət fəaliyyət göstərsə də, hələ də konkret nəticələrə nail ola bilməyib"



Müsahibimiz millət vəkili Tahir Mirkişilidir

***- Tahir müəllim, Polşanın Krakov şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin keçirilən görüşü, ümumilikdə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hansısa ümidverici imkanlar yaradacağını demək olarmı?***

- Azərbaycan Xarici İşlər Nazirliyi görüşləri pozitiv və müəyyən kreativ ideyaların görüşü adlandırdı. Rusiya Xarici İşlər Nazirliyinin sonrakı bəyanatı da görüşün münaqişənin mərhələli həll prinsipi üzrə getdiyini göstərdi. Bu isə, Azərbaycanın bütün danışıqlar prosesində bəyan etdiyi rəsmi mövqedir. Keçirilən görüşlərin konkret nəticələri haqda danışmaq çətindir. Çünki Ermənistanın münaqişənin həllində maraqlı olmasının simptomları hələ də görünmür. Amma danışıqların keçirilməsi və danışıqlarda yeni ideyaların yaranması müsbət haldır.

***- ATƏT-in Minsk Qrupu həmsədrləri münaqişənin həlli ilə bağlı intensiv görüşlər və danışıqlar aparırlar. Bu tələskənlik nə ilə bağlıdır?***

- ATƏT-in Minsk Qrupu, uzun müddət fəaliyyət göstərsə də, hələ də konkret nəticələrə nail ola bilməyib. Bunu həmsədrlər də yaxşı anlayırlar. İşğalçı ölkə ilə torpaqları işğal olunan ölkəyə fərq qoyulmaması həmsədrlərin manevr imkanlarını azaldıb və hər kəs onlardan konkret nəticələr gözləyir. Belə bir şəraitdə, ATƏT-in Minsk Qrupu öz işini görüşlərin intensivləşdirilməsində görür. İntensiv görüşlər keçirtməklə tərəflərin mövqelərinin yaxınlaşdıracağına və silahlı insidentlərin baş verməyəcəyinə inanan ATƏT-in Minsk Qrupu həmsədrləri, məhz bu məqsədlə, həm də regiona intensiv səfər etməyi planlaşdırırlar.

***- Aprel ayında Ermənistanda seçkilər keçiriləcək. Bu baxımdan, nə dərəcədə əminliklə demək olar ki, bu il Dağlıq Qarabağ münaqişəsinin həllində bir irəliləyiş ola bilər?***

- Dağlıq Qarabağ münaqişəsində irəliləyiş yalnız Ermənistanın işğalçı mövqeyindən geri çəkilməsindən sonra mümkün olacaq. Aprel ayında keçirilən seçkilərdən sonra seçiləcək yeni prezidentin və formalaşacaq yeni hökumətin mövqeyi bu il ola biləcək irəliləyişləri müəyyən edəcək. Seçkiöncəsi proses, hələ ki, bunu deməyə imkan vermir. İstənilən halda, Azərbaycan buna ümid edir, çünki yeni, yaradıcı və işğalçılıqdan əl çəkiləcək mövqe Ermənistanın özü üçün həyati əhəmiyyətə malikdir.

**GÜLYANƏ**

# Bütün dünya Azərbaycan həqiqətlərini etiraf etməkməcburiyyətindədir



Xarici işlər naziri Elmar Məmmədyarov Fransada bir sıra görüşlər keçirməklə yanaşı, yanvarın 18-də Polşanın Krakov şəhərində ATƏT-in Minsk Qrupunun həmsədrləri və Ermənistan xarici işlər naziri ilə də görüşüb. Fransada keçirdiyi görüşlərdə bir sıra vacib məqamlara toxunan nazir, fransalı həmkarı Jan-İv Lö Drian ilə görüşdə Ermənistan-Azərbaycan münaqişəsi üzrə danışıqlar prosesinin son statusu haqqında həmkarına məlumat verib və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, münaqişənin həllində irəliləyişə nail olmaq üçün Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu vurğulayıb. Eyni zamanda, o da vurğulanıb ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçılarının dəfələrlə bəyan etdiyi kimi mövcud status-kvo qeyri-davamlı və qəbuledilməzdir.

## İkili standartlar ermənilərin siyasi həyasızlığına zəmin yaradır

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Suriyadan olan ermənilərin yerləşdirilməsi, Azərbaycan xalqının maddi-mədəni irsinin talan və məhv edilməsi, həmçinin, ermənilərin heç vaxt yaşamadığı Cəbrayılda kilsənin tikilməsi həyata keçirilən qeyri-qanuni əməllər sırasındandır. Azərbaycanın münaqişənin mərhələli şəkildə tezliklə həll edilməsi üçün substantiv, intensiv, məntiqi danışıqların tərəfdarıdır və bu xüsusda, həmsədrlərə birgə səyləri davam etdirməyə hazırdır.

Dünyanın müxtəlif ölkələrindən erməni əsilli insanların Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi, Cəbrayıl rayonunda erməni kilsəsinin inşa edilməsi, habelə, işğal altındakı ərazilərimizdə müxtəlif biznes fəaliyyəti ilə məşğul olan şirkətlərlə dünyanın özünü demokratik hesab edən ölkələrinin əməkdaşlıq etməsi Azərbaycan cəmiyyəti üçün yenilik deyil. Bu, heç kəsi təəccübləndirə bilməz. Çünki bu kimi halları biz əvvəllər də çox müşahidə etmişik və nəzərə almaq lazımdır ki, Azərbaycanın qarşısında həyasızlığının həddi-hüdudu olmayan bir siyasi rejim- Sarkisyan rejimi dayanıb. Bundan başqa, Azərbaycanın qarşısında, ikili standartlar siyasəti yürüdən və bunu müxtəlif problemlərin həllində istifadə edən dünya birliyi var.

Bütün dünya ictimaiyyətinə bəllidir və fəxr ediləsidir ki, Azərbaycan xalqı tarix boyunca heç vaxt heç bir kilsəni sökməyib. Azərbaycan tolerantlığı ilə dünyaya nümunə olası bir dövlətdir və xüsusi olaraq, vurğulanmalıdır ki, paytaxt Bakıda kilsə hələ də saxlanılır. Amma Ermənistanın ərazisində bir dənə də olsa məscidə rast gəlmək mümkün deyil. Əfsuslar olsun ki, bu həqiqətlər də, danılmaqdadır, yaxud onlara münasibətdə görməməzlik sərgilənir. Bütün bunlar bir yana, ermənilərin heç vaxt yaşamadığı və həmin ərazilərdə erməni kilsəsi tikilmədiyi halda, indi orada erməni kilsəsinin tikilməsi beynəlxalq səviyyədə nümayiş olunan həyasızlıqdır. Onların bu həyasızlığı da beynəlxalq ictimaiyyətin diqqətindən kənarda deyil. Ermənilərin bu həyasızlığı və simasızlığı təkcə bizə yox, bütün dünya ictimaiyyətinə bəlli olduğu halda, Avropa dövlətlərinin, ATƏT-in Minsk Qrupunun üzvü olan Fransa kimi özünü demokrat hesab edən dövlətin, Dağlıq Qarabağla bağlı problemin həllində üç aparıcı dövlətdən biri kimi, ən azından, müşahidəçi mövqedə dayanması elə özləri üçün çox utancvericidir. Ona görə, özləri üçün də utancvericidir ki, erməni fitnəsi, separatçılığı, terroru, ədalətsizliyi, yalançılığı və simasızlığı tək Azərbaycan xalqına yox, bütün dünya ictimaiyyətinə gün kimi aydın olduğu halda, bunu təkzib edənlər, öz dırnaqarası demokratiyalarını şübhə altında qoyurlar. Hətta demokratik dəyərləri, insan haqlarını, beynəlxalq hüquq və normaları, bir sözlə, bütün ali prinspləri ayaqlar altına alır və öz imiclərinə ləkə gətirirlər.

## İkili standartlar siyasəti Azərbaycanın mövqeyini kölgəyə sala və mübarizəsini dayandıra bilməz

Beynəlxalq təşkilatların, nüfuzlu dövlətlərin Azərbaycan, Dağlıq Qarabağ həqiqətlərinə müşahidəçi mövqeyi ikili standartların tətbiqi kimi öz qiymətini almaqdadır və bu mövqe prosesləri ləngitsə də, ona istiqamət verə bilməz. Daha dəqiq desək, ikili standartlar siyasəti yürüdənlər Azərbaycan həqiqətlərini ört-basdır edə, onun mövqeyini kölgədə qoya, mübarizəsini dayandıra bilməz. Əksinə, reallıqları dananlar öz nüfuzunu, imicini, adını risk altında qoyur. Hazırda, Fransa kimi özünü demokrat hesab edən dövlətin mövqeyi bizim üçün yenilik deyil və bu da ikili standartların bariz nümunəsidir.

Yanvarın 18-də Polşanın Krakov şəhərində keçirilən görüş həmsədrlərin növbəti dırnaqarası vəzifələrini icra etmək üçün həyata keçirdikləri tədbirlər silsiləsindən də ola bilər. Amma bu cür görüşlərin keçirilməsini heç də nəticəsiz hesab etmək olmaz. Bu tip görüşlərin keçirilməsi müsbət hesab olunmalıdır və belə görüşlər təsdiq edir ki, Azərbaycan bütün müstəvilərdə mübarizəsini davam etdirmək əzmindədir və öz haqlı tələblərini irəli sürmək iqtidarındadır. Ölkəmizin istənilən müstəvidə keçirilən görüşdə öz dəyişməz mövqeyini bildirməsi, dünya birliyini dilemma qarşısında və Azərbaycan həqiqətlərini qəbul etmək və etiraf etmək məcburiyyətində qoyur.

**İnam HACIYEV**

# Azərbaycan və Almaniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib



Xarici İşlər Nazirliyində Azərbaycan və Almaniya Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib. XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələrdə Azərbaycanı xarici işlər nazirinin müavini Xələf Xələfov, Almaniyanı isə Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili Andreas Peşke təmsil edib. X.Xələfov Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin daimi əsasda aparılmasının ənənə kimi qəbul edildiyini və bu ənənənin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi və şaxələndirilməsi baxımından faydalı platforma olduğunu bildirib.

A.Peşke Azərbaycan və Almaniya arasında ikitərəfli əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edib, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin, Ticarət və İnvestisiya Qrupunun səfərinin, eləcə də Göthe Mərkəzinin Bakıda nümayəndəliyinin açılmasının əməkdaşlığın müxtəlif səviyyələrdə inkişafının müsbət göstəricisi olduğunu vurğulayıb.

X.Xələfov ikitərəfli iqtisadi və mədəni əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə edərək Azərbaycanın Almaniyanın regionları ilə əlaqələrə də böyük önəm verdiyini, Federal Hökumətin dəstəyi ilə bu sahədə irəliləyiş əldə ediləcəyinə ümidvar olduğunu bildirib. Həmçinin görüşdə qeyri-neft sektorunun inkişafı, nəqliyyat və logistika sahələrində birgə investisiya layihələrinin reallaşdırılması, habelə turizm sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan X.Xələfov separatçı rejimin nümayəndələrinə Almaniya hökuməti tərəfindən viza verilməməsi ilə bağlı qərarının Almaniyanın münaqişənin həlli prosesinə və Azərbaycanın ərazi bütövlüyünə dəstəyi kimi yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. A.Peşke Almaniyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı mövqeyinin birmənalı olduğunu, münaqişənin Helsinki Yekun Aktının prinsipləri əsasında həllini dəstəklədiyini diqqətə çatdırıb. O, Almaniyanın ATƏT-ə sədrliyi dövründə münaqişənin həllində irəliləyişə nail olunması istiqamətində səylər göstərdiyini də əlavə edib.

A.Peşke 2018-ci ilin Azərbaycanda alman məskənlərinin salınmasının 200 illiyi ilə əlamətdar olduğunu bildirərək bu çərçivədə müxtəlif mədəni tədbirlərin keçirilməsinin planlaşdırıldığını qeyd edib. Görüşdə, həmçinin Azərbaycan və Avropa İttifaqı arasında münasibətlərin cari vəziyyəti, readmissiya, miqrasiya məsələləri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Özbəkistan portalı 20 Yanvar faciəsindən yazır

Özbəkistanın "Qalampir.uz" portalı 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə bağlı məqalə yayıb. Məqalədə 20 Yanvar faciəsinin başvermə səbəbləri və nəticələri haqqında məlumat verilir. Bildirilir ki, o dövrdə azadlıq və müstəqillik tələb edən əliyalın xalqa keçmiş SSRİ-nin rəhbərliyi tərəfindən görünməmiş vəhşiliklər törədilib. Yazıda yanvarın 19-dan 20-nə keçən gecə qətlə yetirilən, yaralanan, itkin düşən və həbs edilən insanlar haqqında da məlumat verilir. Vurğulanır ki, o gecə şəhidlər arasında qocalar, qadınlar, uşaqlar, hətta əlillər olub.

Məqalədə vurğulanır ki, 20 Yanvar Azərbaycanda matəm, eyni zamanda, qəhrəmanlıq, cəsarət və igidlik günü kimi qeyd olunur. Həmin gün Bakıdan, respublikanın bölgələrindən Şəhidlər xiyabanına gedən insanlar şəhidlərin xatirəsini ehtiramla yad edirlər.

# Mais Səfərli: "Müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur"

*Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir*

***- Mais bəy, Əli Kərimli və onun ətrafında olanlar hər fürsətdə şou yaratmağa və diqqət mərkəzinə çevrilməyə çalışırlar. Sizcə, bununla, cəmiyyətdə siyasi dividend qazanmaq olarmı?***

- Bildiyiniz kimi, Ə.Kərimlinin başçılıq etdiyi partiya çox acınacaqlı durumdadır. Digər radikal müxalifət düşərgəsinə daxil olan partiyalarda da eyni ağır vəziyyət hökm sürür. Uzun illərdir ki, Kərimli kimilər müxalifətdə fəaliyyət göstərirlər və bu illər ərzində, onlar ortaya heç bir normal partiya fəaliyyəti qoymayıblar. Deməli olar ki, radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin işləri-peşələri ancaq iqtidarın parlaq fəaliyyətinə kölgə salmaq və xaricdə olan havadarlarına reallığı özündə əks etdirməyən yanlış məlumatlar göndərməkdən ibarətdir. Cəmiyyətimiz isə, onların bu cür yersiz işlər tutmalarına nifrət edir. Məhz bunun nəticəsidir ki, adları çəkilən bu qüvvələr öz elektoratını itiriblər. O cümlədən də, ölkədə keçirilən bütün seçkiləri də uduza-uduza gəliblər. Sadəcə olaraq, müxalifətçilər bu gün gündəmdə qalmaq üçün, məhz belə anormal vasitələrdən istifadə edirlər. Ancaq onlar bunu dərk etmirlər ki, şou düzəltmək və heç nə olmayan yerdə, nə isə bir məsələni böyüdərək siyasiləşdirmək, demək olar ki, özlərinin daha



da gözdən salmaqdan başqa bir şey deyil. Bu müxalifətə heç bir siyasi dividend qazandırmayacaqdır. Əksinə, onlar bu cür hərəkətləri ilə daha da tamamilə gözdən düşürlər. Bunu müxalifətin özü də çox gözəl başa düşür. Sadəcə olaraq, onların məşğul ola biləcəyi başqa bir iş yoxdur.

***- Ə.Kərimli nəinki ətrafı tərəfindən, eləcə də, cəmiyyət tərəfindən qəbul olunmur. Bu baxımdan, onun seçkilərdə namizəd qismində çıxış etməsi nə dərəcədə uğurlu olacaq?***

- Azərbaycan cəmiyyəti və seçiciləri kifayət qədər savada və səviyyəyə malik olan insanlardır. Azərbaycan seçicisi ağı qaradan çox gözəl seçə bilir. Ona görə də, xalqımızı heç kəs aldada bilməz. Amma məhz bu cür fəaliyyətləri, artıq onlarla seçicilər arasında çox böyük uçurum yaradıb. Bu baxımdan, bu il keçiriləcək prezident seçkilərində müxalifətin nə isə bir uğur qazanmaq şansları sıfıra bərabərdir. İstər bu seçkilərə birlik şəkilində, istərsə də ayrı-ayrılıqda getsinlər, onların bu seçkilərdə iştirakının nəticəsi olmayacaqdır. Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur.

***- Hazırda müxalifətdə "vahid namizəd" olmaq iddiasında olan bir neçə partiya sədri var. Ə.Kərimli iddia edir ki, onlardan ən şanslısı özüdür. Bunu özünəvurğunluq, həm də təkəbbür əhvalatı kimi qiymətləndirmək olarmı?***

- Bildiyiniz kimi, indiyə qədər Ə.Kərimli seçkilərdə iştirak etməyib. Yəni bu zamana qədər seçkilərə özü getməsə də C.Həsənlinin, R.İbrahimbəyovun namizədliyini müdafiə edib. Ə.Kərimli başa düşür ki, yaşı keçir və artıq onun ətrafında olanlar da tələb edirlər ki, sən əgər siyasətdəsənsə və partiya sədrisənsə, onda nəyə görə namizədliyini irəli sürmürsən? Bu baxımdan da, Ə.Kərimli məcbur qalaraq, namizədliyini irəli sürür. Amma Ə.Kərimlinin, özü də çox gözəl başa düşür ki, bu, heç bir uğurla nəticələnə bilməyəcəkdir. Çünki bu seçkilərdə onların şansları yoxdur. Bir sözlə, növbəti dəfə müxalifət özünü biabır edəcək.

***GÜLYANƏ***

# Nə yaxşı ki, sən varsan!

*Bilirsənmi, gizli eşq atəşinə yanıb-yaxılmaq, nə deməkdir ?*

Duymusanmı, közə dönmüş hisslərin sızıltısını, ağılla duyğunun savaş meydanında didilib param-parça olaraq əzabların dustağına çevrilməsini. Barmaqlara telefon nömrəni yığmağa, ayaqlara qapınıza gəlməyə, səsə hayqırıb adını çəkməyə qadağa qoymağın necə işgəncə olduğundan xəbərin varmı? Bütün əzalarının, iradənin, düşüncənin itaətdən çıxaraq, yelkənsiz qayıq kimi yaşamaq məhkumluğunu dərk edirsənmi? Həsrətdən cadar-cadar sulanan yaralar bilirsənmi, nə sayaq göynəyir? İnsan çiyinlərinin duruş gətirməyə aciz olduğu bu ağırlığı daşımaga mənə təpər ver, İlahi! Çünki Sənli məşəqqətlərdə, ağrı-acılarda bir gözəllik bir nəşə var.

Bu, bir həyat eşqidir, bu, Sən ünvanlı bir Dünyadir! Getdiyin yol, ayaqlarına sarılan kölgə, baxdığın uzaqlar, qulaq asdığın həzin musiqi, udduğun hava, yatdığın yuxu və fikirlərini saran düşüncə olmaq istəyirəm.

Hara getsəm, güzar tutsam, ixtiyarsız bir cazibə məni həyətinizə qətirir. Binanıza, pəncərənizə salam verib, əleyk almadan yoluma davam edirəm. Dodağıma xəfif zümzümə qonur:

*Ürəyim darda qaldı,*
*Gözüm yollarda qaldı.*
*Sevənlər qovuşdular.*
*Media harda qaldı?*

Nə yaxşı ki, Sən varsan, nə yaxşı ki , Sən adlı möcüzənin əsiriyəm. Yükün və əzabım ən böyük səadətimdir!

***Səlahəddin***

# Qanunsuz saxlanılan silah-sursat aşkarlanaraq götürülüb



Daxili işlər orqanlarının əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində tədbirlər davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Sabunçu Rayon Polis İdarəsinin 15-ci polis bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında yanvarın 22-də keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Abşeron rayonunun Məhəmmədi kənd sakini, əvvəllər məhkum olunmuş Cənnət Məcidovun yaşadığı evə baxış keçirilib. Evdən "RPK-74" markalı silah və beş patron aşkar edilərək götürülüb.

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Muğan qəsəbə sakini Qurbət Əsgərovun yaşadığı evə baxış zamanı isə "TOZ-16" markalı tüfəng və iki patron aşkarlanıb. Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb.

# MKİ direktoru: "KXDR ABŞ-a bir neçə aya zərbə endirəcək"



Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru Mayk Pompeo Şimali Koreyanın (KXDR) ABŞ-a nüvə zərbəsi endirməsi mümkünlüyü bir neçə aya baş verə bilər. SİA xəbər verir ki, CBS telekanalına müsahibəsində Pompeodan Şimali Koreyanın lideri Kim Çen Inın bu addımını ata bilməsi ehtimalı barədə sual verilib və o da "bir neçə aya" cavabı ilə kifayətlənib. Aparıcı Pompeoya xatırladıb ki, o, bir neçə ay öncə də bənzər proqnozlarla çıxış etmişdi. "Bəli, bu elədir. Mən demək istərdim ki, mövcud andan başlayaraq, söhbət bir ildən gedir. ABŞ rəhbərliyi vaxtı uzatmaq üçün əzmlə çalışır", - deyə MKİ-nin direktoru bildirib.

O, həmçinin bildirib ki, ABŞ KXDR-ə qarşı BMT sanksiyalarının tətbiq olunmasın üçün Rusiya Federasiyası və Çin hökumətlərinə "bel bağlayır". Xatırladaq ki, KXDR 2017-ci ildə sayca altı dəfə nüvə raketi sınaqları keçirib. BMT TŞ isə rəsmi Pxenyana qarşı sanksiyaları üç dəfə gücləndirib.



İLHAM

# Mişel Obama mənə "hello" yazdı

***Amerika Birləşmiş Ştatlarının keçmiş birinci ledisi Mişel Obama məni qonaq çağırıb. Yəqin ki, bu sözləri oxuyanların bəziləri dodaq büzdü, təəccüblə kölgəni qılınclayanlar və atmaca atanlar da oldu. Məsxərə tipli fikirlər deyib, qəşş edib, uğunub gedənlər də oldu. Deyən lazımdır, qardaşım, anam, bacım, niyə? Bəyəm, bizə halva yemək haramdır? Yoxsa motal yağı yesək, qarnımız ağrıyar? Bəyəm, bizlər böyük-böyük zadlarla bir masa arxasında oturub, söhbət edə bilmərik? Bir də ki, axı Mişel Obama artıq ABŞ-ın birinci ledisi deyil. Artıq o, eks-prezident Barak Obama ilə birlikdə Havay adalarında yaşayırlar.***

O günləri marağa feysbuk vasitəsi ilə, xarici ölkələrdəki şan-şöhrətli və vəzifə sahibi olan bir neçə şəxsə dostluq mesajı atmışdım. Dostluq mesajı göndərdiyim şəxslərdən biri də Mişel Obama idi. Dərhal qəbul etdi. Yazdı ki, "hello". Bu sözdən çox təsirləndim, yazı-pozu içində başımı qaldırıb, bir xeyli fikrə-xəyala daldım. Deməli, irəliləyiş var. Yadıma tanıdığım qonşu kənddəki dəyirmançı Bahadurun oğlu Nicat düşdü. Deməli, bu adam qoyundan-quzudan satıb, Kanadaya getmişdi. Metronun yanından keçəndə, görür ki, baş nazir Kastin Trudo velosipeddən düşüb, metroya minmək üçün pilləkənlərə doğru addımlayır. Nicat da vaxtı fövtə verməyib, qaçıb baş naziri haqlayıb. Səmimi söhbətdən sonra, yeni tanışlar selfi çəkdiriblər. İnanın, hal-hazırda dəyirmançının oğlu Nicat kəndin ən sayılıb-seçilən tanınmış simalarındandır. Heç işləyib eləmir də. K.Trudo ilə çəkdirdiyi şəklini evinin girişindən asdığından, tanıyan-bilənlər, küçədən gəlib keçənlər ona beşdən-üçdən verirlər. O günləri dostlardan bir deyir ki, Nicat özünə maşın alıb.

Başqa bir misal da çəkim. Həyatımızın ayrılmaz hissəsi olan sosial şəbəkələrdən oxuyuram ki, bəzi diribaş ictimai fəallar Böyük Britaniyanın baş naziri Devid Kemeronla, Hollandiyanın baş naziri Mark Ryutte, Norveçin baş naziri və Mühafizəkarlar Partiyasının sədri Ema Sorbeqlə görüşüb, söhbət ediblər. Hətta Mövsüm adlı sosial şəbəkə istifadəçisi iddia edirdi ki, Ema Sorbeqlə restorana gedib yeyib-içiblər də. Ən maraqlı və diqqətçəkən görüş isə Rüstəm adlı soydaşımızın Amerikanın tanınmış modelyeri Kim Kardaşyanla görüşüdür. Rüstəm iddia edir ki, Vaşinqtonda barların birində Kim Kardaşyanla birbaşa ünsiyyət qurub, içki içib və rəqs ediblər. Erməni haxçi necə Rüstəmin ünsiyyətcil olmasına vurğun olubsa, Koçaryan o yana dursun, Sarkisyanın bütün əcdadını söyüb-təhqir edib. Deyilənə görə, hal-hazırda erməni haxçi açıq şəkildə bəyan edir ki, iti görüm-qurdu görüm, amma erməni nəslindən olan bir kimsəni görməyim. Açığı Rüstəm soydaşımızın gedişini təkrarlamaq kasıb və imkansız birisi olan mənim kimilər üçün çox çətindir. Ancaq nəzərə almaq lazımdır ki, Kim Kardaşyan bir növ bizim şou mütrübləri kimi bir şeydir. Yəni onun üçün əsas yeyib-içib şellənməkdir, amma Mişel Obama çox ciddi və sərt adamdır. Düzdür, hərdən o da Barak Obamanın razılığı ilə tanqo rəqsi oynayır. Amma bu, davamlı olmadığından, ona şübhəli nəzərlərlə baxmaq olmaz. Bir sözlə, mənim qonaq qismində Mişel Obama tərəfindən Amerikaya dəvət olunmağıma təbii yanaşmaq lazımdır. Yəqin ki, Barak Obama Donald Tramp kimi dəli-dolu olmadığından, bu qonaqlığa heç də etiraz etməyəcək. Ehtimal var ki, Barak Obama düzənlənəcək məclisdə yuxarı başda oturub, bir tost da deyəcək. Bu, bir ümiddir, bəzən deyirlər ki, yeməkdənsə, ümid yaxşıdır.

# "Milli Şura"nın xalqın mənəvi dəyərlərinə sığınmağa zərrə qədər haqqı çatmır

***Demokratik qüvvələr adından çıxış etməyə cəhd göstərən "Milli Şura" deyilən qondarma qurumun üzvləri təşviş içindədir. Bu təşvişin səbəbi heç də milli maraqlar, demokratik dəyərlər və hər zaman istifadə etməyə çalışdıqları bu kimi ali prinsplər deyil. Ali prinsiplərdən, hətta şəhid məqamından alət kimi istifadə etmək cəhdidir. Bu cəhdi real müstəvidə heç bir nəticə əldə edə bilmədiyi üçün virtual müstəviyə çıxaranların sosial şəbəkələrdəki fəaliyyətindən görmək olar.***

Bir zamanlar qondarma "Milli Şura" tribunasından hay-küy salan Gültəkin Hacıbəyli son vaxtlar sosial şəbəkə "cəngavərinə" çevrilib. Bu qadının ittihamlarla dolu fikirləri əslində bir-birini təkzib edir. Hətta G.Hacıbəyli öz maraqları üçün şəhid məqamından da utanmadan istifadə etməkdə mahir olduğunu nümayiş etdirir. Son günlər Azərbaycanın ən şərəfli tarixi gününün qeyd olunması, şəhid adının ehtiramla yad edilməsi, 20 Yanvar xatirəsinin anılmasının ildönümü ərəfəsində G.Hacıbəyli sosial şəbəkədə daha da dırnaqarası "fəallıq" göstərdi və əslində, bu ali məqama hörmətsiz yanaşmasını nümayiş etdirdi.

## Piket keçirmək üçün 20 Yanvardan istifadə etmək cəhdi şəhid ruhuna qoyulan hörmətsizlikdir

G.Hacıbəylinin sosial şəbəkə vasitəsilə insanları anım günündə "Milli Şura" ilə birlikdə şəhid məzarlarını ziyarət etməyə çağırması heç bir məntiqə sığmır. Bu, avantüradır. Niyə bu xalq öz şəhidlərini "Milli Şura" ilə anmalıdır? İmperiya qoşunları paytaxtda qanlı aksiya keçirəndə, qaçıb gizlənən müxalifət ünsürləri olsa da, axı şəhid canını qurban verəndə "şura" deyilən bir şey yox idi.

Sözsüz ki, bir dövlət və xalq üçün də, hətta hər bir fərd üçün də şəhid məqamından qiymətli dəyər ola bilməz və yoxdur da. Əcəba, G.Hacıbəyli necə, bu dəyərlərə hörmətlə yanaşırmı? Öz çirkin niyyəti, piket keçirmək məqsədi üçün 20 Yanvar faciəsi günündən istifadə etmək cəhdi şəhid ruhuna qoyulan hörmətdirmi? Yəni "şura", onun üzvləri bu qədər saygısız oldular ki, şəhidi anma gününü öz maraqlarına xidmət üçün seçim etdilər? Yoxsa ötən əsrin 90-cı illərində meydana toplaşan böyük insan kütləsindən istifadə edən cəbhəçilər misalı, indi də bunlar çoxsaylı insan izdihamından yararlanmağı planlayırdılar? Müxalifət nümayəndələrinin bu qədər aşağı düşəcəyinə şübhə olmayıb, belə hallarla dəfələrlə rastlaşılıb. Amma xalqın, öz əzizlərinin, şəhidlərinin xatirəsini yad etməyə toplaşanların bu ünsürlərin ardınca düşəcəyinə ümid etməsinə belə heç cür inanmaq olmur. Özləri də bilirdilər ki, izdihamdan bir nəfər belə ayrılıb, onlara qoşulan deyil.



## Polis xiyabanda maneə üçün yox, asayiş üçün nəzərdə tutulmuşdu və şəhid məqamına hörməti ifadə edirdi

H.Gültəkin ola bilsin, dərk etmir ki, 20 Yanvar günü xiyabanda polis maneə üçün yox, asayiş üçün nəzərdə tutulmuşdu. Belə bir şərəfli gündə öz şəhidlərinin xatirəsini əziz tutan xalqın ziyarət üçün yığışmasından, insan izdihamından alət kimi istifadə etməyə çalışan, çirkin niyyətlər planlaşdıranlardan bu xalqı mühafizə etmək üçün polis öz şərəfli peşəsini həyata keçirirdi. Sizin kimi avantüristlərin 20 Yanvar kimi müqəddəs bir gündə şəhid ruhuna hörmətsizlik etmək cəhdlərinizin belə baş tutmaması üçün nəzərdə tutulan tədbirlər, əslində, şəhid ruhuna və məqamına hörmətin təzahürü idi.

Əlbəttə, şəhid ruhu narahatdır, amma G.Hacıbəyli bilməlidir ki, şəhid ruhu öz mitinqlərində düşmən dəyirmanına su tökən, Azərbaycan Ordusunu aşağılamağa səy göstərən, Azərbaycan əsgərini əliyalın adlandıraraq, ermənilərə mesaj atmağa çalışan, işğalçıları ruhlandırmaq istəyən xainlərə görə narahatdır. Şəhid ruhu, ona görə narahatdır ki, siz hələ də xalqın mənəvi ruhundan və şəhid məqamından belə öz çirkin məqsədləriniz üçün istifadə etməyə can atırsız. Ona görə narahatdır ki, uğrunda can verdikləri bu torpağın üstündə sizin kimi xainlər var.

## "Milli Şura" istisna olunmur və ümumilikdə, müxalifətin fəaliyyəti gerçək deyil

G.Hacıbəyli yazır ki, gerçək müxalifəti-"Milli Şura"nı Şəhidlər Xiyabanına buraxmaq istəmədilər. Sonra da yazır ki, biz xiyabanı ziyarət etdik. Bu, nə məntiqsizlikdir? Əgər ziyarət etdinizsə, buraxmaq istəmədilər nə ittihamdır? Yoxsa Hacıbəyli istəkləri və fikirləri də oxuya bilir? Bu qadında olmaya şamanlıq istedadı da var və istəkləri, düşüncələri belə xüsusi öncəgörmə qabiliyyəti ilə duya bilir? Amma duyğu orqanlarına çox güvənən bu qadın nədənsə, bu xalqın onlara olan inamsızlığını, hətta real olan nifrətini belə heç başa düşə bilmir.

Gerçək müxalifət dedikdə, G.Hacıbəyli yalnız "Milli Şura"nı nəzərdə tutursa, digər müxalifət qurumlarını şübhə altına alır və ittiham edir. Hacıbəylinin fikrincə, müxalifətin qalan qurumlarının heç biri gerçək deyil və məlum olur ki, o, müxalifəti gerçək və qeyri-gerçək olmaqla iki qrupa bölür. Yaxud müxalifətin gerçək olmayan fəaliyyəti Hacıbəyli tərəfindən etiraf edilir.

Əslində, G.Hacıbəyli rəy və fikirlərinə ehtiyac belə yoxdur. İctimaiyyət çox yaxşı başa düşür ki, ümumilikdə, müxalifətin fəaliyyəti gerçək deyil. Öz mövcudluğunu sübut etmək, varlığını, son qüvvəsini göstərmək üçün sosial şəbəkələrə əl atan müxalifət, real siyasi arenadan uzaq olan virtual məkana ümid bəsləyir. "Suda boğulan saman çöpünə də əl atar", misalında bu biçarələrin başqa bir çarəsi belə qalmadığı üçün virtual məkanı mübarizə meydanı kimi seçməsi də başadüşüləndir. Amma öz yalanları, təhrifləri, təkzibləri ilə istifadə etmək, yararlanmaq, öz mənafeləri üçün alət etmək kimi çirkin niyyətləri ilə virtual məkanın kontingenti arasında da nifrətlə qarşılandıqları, tezliklə bu məkanı da tərk etmək məcburiyyətində qalacaqları günün reallığıdır.

İstər G.Hacıbəyli olsun, istərsə də digər "Milli Şura" nümayəndəsinin ictimaiyyətin adından danışmağa, onu təmsil etməyə, xalqın mənəvi dəyərlərinə sığınmağa zərrə qədər haqqı çatmır. Azərbaycan xalqı Şəhidlər Xiyabanını yalnız hər il 20 Yanvar günü deyil, mütəmadi olaraq, ziyarət edir və öz müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərə ehtiramını ifadə edir.

***İnam HACIYEV***

## Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədən sürücü həbs edilib

Yanvarın 22-də saat 20 radələrində Tərtər rayon sakini Məhəmməd Əhmədov sürücülük hüququ olmadan idarə etdiyi "Mercedes 208 DKB" markalı 10-RB-130 dövlət qeydiyyat nişanlı mikroavtobusla rayonun Qaradağlı kəndində hərəkətdə olarkən yolu keçmək istəyən piyada Firdovsi Məmişovu vurub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində keçinib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Tərtər Rayon Polis Şöbəsinin istintaq qrupunda Cinayət Məcəlləsinin 263-1.3-cü (nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Cinayətin M.Əhmədov tərəfindən törədilməsində əsaslı şübhələr yarandığından o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. M.Əhmədova Cinayət Məcəlləsinin həmin maddəsi ilə ittiham elan olunub. Məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

TƏRS BAXIŞ

# Əli Kərimli-İlqar Məmmədov trolları bir-birilərinə qarşı

### *Sosial şəbəkədə AXCP-"REAL" qarşıdurması şiddətli hala qədəm qoydu*



***Son günlər sosial şəbəkədə AXCP sədri Əli Kərimlinin "REAL" hərəkatının həbsdə olan sədri İlqar Məmmədovla kəskin qarşıdurması müşahidə olunmaqdadır. Əslində, bu qarşıdurmaların əsas səbəbi müxalifət daxilində keçirilən sosial sorğularla bağlıdır. Daha dəqiq desək, virtual seçkilərdə cəbhəçi-"REAL"çı üzvləri və onların saxta profilləri trolluq edərək, öz sədrlərinin digərindən üstün olduğunu müxtəlif vasitələrlə cəhdlər göstərirlər. Bu kimi sorğuya, həmçinin, tərəflərin cinahında olan partiya sədrləri və birlik rəhbərləri də çıxarılır ki, nəticədə, onlar arasında, hətta təhqirlərlə müşahidə edilən qarşıdurmalar yaşanır.***

## İsa Qəmbər necə çıxdaş oldu və Arif Hacılı müsavatçıları nədə ittiham etdi?

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, Müsavatın sabiq başqanı İ.Qəmbər də həmin siyahıda olub. Ancaq o AXCP ilə "REAL" hərəkatı tərəfindən çıxdaş edilib. Hətta müsavatçıların bu məsələdə qarşılıqlı ittihamları da yaşanıb ki, xüsusilə, A.Hacılı müsavatçıları sözügedən sorğuda zəif iştirak etməkdə günahlandırıb.

Ancaq növbə sonradan AXCP sədri Ə.Kərimliyə çatıb. Belə ki, AXCP üzvləri və saxta profillərə sahib olan trollar İ.Məmmədovun "likeləri" qarşısında uduzublar. Yəni İ.Məmmədov Ə.Kərimlini üstələyib. Viirtual sorğudan sonra virtual savaşa qalxan cəbhəçilər öz qaragüruhçuluqlarına sadiq qalaraq, "REAL"-çılara qarşı aqressiv kampaniyaya start veriblər. Nəticədə, iddia olunub ki, İ.Məmmədova daha çox saxta profillərdən səs verilib və onlayn səsvermənin nəticəsi də uydurmadır və s.

## Natiq Cəfərlidən AXCP-çilərə: "Sosial şəbəkələrdəki mənasız və elmi olmayan sorğularda belə uduzmağı həzm edə bilmirsiniz"

Təbii ki, hadisələr əsnasında "REAL"-ın səlahiyyətlisi Natiq Cəfərli status yazaraq, AXCP üzvlərinə sərt cavab verib. Bu cavab onların daha da aqressivləşmələrinə səbəb olub. Misal üçün, N.Cəfərli yazıb: "...Sosial şəbəkələrdəki mənasız və elmi olmayan sorğularda belə uduzmağı həzm edə bilməyənlərə isə, sözüm odur ki, bu yanaşmanız təhlükəli və yanlışdır. Əks fikir səsləndirənlər sizin üçün həmən "satqın", sosial şəbəkələrdə sizə səs verməyənlər isə həmən "trol" olur. Dəhşətli, məmləkət üçün faciəvi düşüncə tərzidir və sizləri daha çox marginallaşdırır və dar bir qrupa çevirir". Daha sonra bəlli olub ki, cəbhəçilər Kərimlinin daha çox "səs" toplaması üçün tanımadıqlara şəxslərə mesaj yazaraq, onlardan "like" diləniblər. Hətta növbəti dəfə ucuz şou göstərərək, guya İ.Məmmədova hakimiyyətin tərəfdarlarının da səs verdiyini öz təbirlərinə uyğun hay-haraylarla bildiriblər.

Beləliklə, N.Cəfərli daha sonra Kərimlinin düşərgəsinə sual ünvanlayıb: "Cəbhəçilər bu qədər güclüdürlərsə, niyə mitinqlərinə 2-3 min adam gəlir?"

## Saxta və yararsız müxalifət indi də gündəmdə qalmaqdan ötrü bu cür oyunbazlıqlar göstərir

Suala qarşı tərəfin cavabı oxşar olub: "İlqar Məmmədovun virtual tərəfdarlarının sayı bu qədər çoxdursa, nə üçün "REAL" həyatda bu özünü göstərmir?"

Fakt isə budur ki, müxalifətin bütün cinahlarında vəziyyət onların istədikləri kimi getmir və zaman-zaman öz zəiflikləri bu cür vasitələrlə üzə çıxır, o cümlədən, belə davaların, savaşlı qalmaqalların təməlindən Ə.Kərimli və onun "Milli Şura" adlı lüzumsuz qurumu çıxır. 2018-ci ilin prezident seçkiləri isə uzaqda deyil və vaxt azaldıqca, bizlər bu kimi qarşıdurmaların sayını daha çox görməli olacağıq. Necə deyərlər, saxta və yararsız müxalifət indi də gündəmdə qalmaqdan ötrü bu cür oyunbazlıqlar göstərir.

***Rövşən NURƏDDİNOĞLU***

# İnsan hüquqlarına müxtəlif yanaşmalar

***İnsan hüquq və azadlıqlarına müxtəlif yanaşmalar və konsepsiyalar mövcuddur. Onlar aşağıdakılardan ibarətdir:***

1. Hüquqi-pozitivist yanaşma.
2. Liberal yanaşma.
3. Təbii hüquq nəzəriyyəsi.
4. "Hümanitar müdaxilə" nəzəriyyəsi.

Hüquqi-pozitivist yanaşmanın tərəfdarları insan hüquqlarının hər hansı qeyri-dövlət mənşəyini inkar edirdilər. Onlar dövlətin rasional təbiətindən, onun dəyişməzliyi və sosial-iqtisadi zəminlərdən asılı olmasından çıxış edirdilər. Hüququ (insan hüququnu) qanundan (dövlətin qanunundan) fərqləndirmir və şəxsiyyətin hüquqlarının dövlətin hüquqları üzərində prioritetini görmürdülər. Bu yanaşmanın nümayəndələrinin fikrincə, vətəndaş hüquqları məqsədəmüvafiq olduqda və dövlətin tələbatlarından asılı olaraq, dəyişdirilməli idi. Bu yanaşmaya görə, dövlət insana hüquqlar verir, onların həcmi və məzmununu özü reqlamentləşdirir.

Tarixi təcrübə göstərir ki, bir çox dövlətlərdə, nəinki quldarlıq dövründə, hətta orta əsrlərin ilkin mərhələlərində insanlar bütün hüquqlardan məhrum idilər. Onlar subyekt deyil, quldarlararası münasibətlərin obyekti qismində çıxış edirdilər. Humanist ideyaları qəbul edən Amerika respublikasının "təməlçiləri" üçün belə quldarlığın saxlanılması, qadınların və kasıbların siyasi hüquqlarının olmaması təbii idi.

Hüquqi-pozitivist yanaşmanın tərəfdarlarından fərqli olaraq, liberal nəzəriyyənin nümayəndələri hesab edirdilər ki, insan üçün müqəddəs olan hüquqlar dövlətdən asılı olmadan mövcuddur və hakimiyyət institutu kimi dövlət şəxsiyyətin hüquqlarına olan təhlükənin daşıyıcısıdır. Əsas hüquqlara onlar fərdin sosial-iqtisadi imkanlarına xüsusi əhəmiyyət vermədən, onun siyasi və vətəndaş hüquqlarını aid edirdilər. Lakin özünün əsas vəzifəsini insanı dövlət tərəfindən xarici təcavüzdən qorumaqda görərək, liberallar hədsiz dərəcədə şəxsiyyəti cəmiyyətdən və dövlətdən uzaqlaşdırırdılar. Beləliklə də, siyasi sahənin mahiyyəti aşağı salınır və bu da, İ.Şapironun fikrincə, şəxsi həyat sahəsinin siyasətdən kənarda olmasından çıxış edən liberal təsəvvürlərdən irəli gəlir.

İnsan hüquqlarının inkişafında qeyd olunan hər iki yanaşma dövlət və hüquqi qarşılıqlı münasibətlərinə dair müasir təcrübədə də mövcuddur. Məsələn, ABŞ, Fransa, İtaliya, İspaniya konstitusiyalarının əsasını təbii-hüquqi insan hüquqları konsepsiyası təşkil edirsə, Avstriya və Almaniyanın konstitusiyalarının əsasında pozitivist konsepsiya qoyulmuşdur. Təcrübə belə bir nəticəyə də gəlməyə imkan verir ki, əhalisi milli-psixoloji xüsusiyyətləri sayəsində daha intizamlı olan dövlətlərdə pozitivist yanaşma üstünlük təşkil edir.

Beləliklə, əgər təbii hüquq nəzəriyyəsinə görə insan hüquq və azadlıqları ayrılmaz, şüurdan, ilahi iradədən və ya insanın dəyişməz təbiətindən irəli gəlirsə, pozitivist istiqamət onlara dövlət tərəfindən müəyyən olunmuş kateqoriyalar kimi yanaşır.

Müasir insan hüquqları və azadlıqları konsepsiyaları çərçivəsində də onların ayrılmaz və universal xarakteri təsdiq edilir. Ancaq bu konsepsiyalarda fərd və dövlətin münasibətlərinin ziddiyyətliliyi qəbul olunsa da, hüquq və azadlıqların məzmununda qismən dəyişikliklərin edilməsinə yol verilir. Buna baxmayaraq, hətta dövlət hüquqların bəzilərini müvəqqəti dəf etsə də, onları insanın əlindən almaq iqtidarında deyil. Ona görə də, müasir politoloqlar hüquqların "yuxarıda" hədsiz cəmləşməsinə, xüsusilə də, hakim elitanın insana verilən hüquq və azadlıqların həcmi və xarakterinin müəyyən edilməsi məsələlərində qrup diktatına qarşı dəlillər gətirirlər. Lakin bu zaman da hüquqların təminatı və istifadə olunmasında insan və dövlətin qarşılıqlı məsuliyyəti xüsusi vurğulanır.

Ümumiyyətlə, müasir insan hüquqları konsepsiyalarında, belə hesab olunur ki, indiki vaxtda fərd və artıq yetkin hüquqi və sosial dövlətdə siyasi hüquqlar özünün əvvəlki prioritetliyini itirirlər. Bu hüquqlar ikinci dərəcəli hüquqlara çevrilir və vətəndaşların bütün hüquqlar spektrini, onların reallaşdırılması formalarını dərk etmələri üçün müəyyən mənada zəmin olurlar. İnsan hüquqları və azadlıqlarının başa düşülməsində artan fərdiçiliyə daha çox diqqət yetirilir. Tədricən belə bir ideya təsdiq edilir ki, insan özü hüquq və azadlıqlarının reallaşması formalarını müəyyən etməkdə azaddır. Dövlət isə yalnız fərdi təşəbbüslərin dəstəklənməsi və şəxsiyyətin inkişafı üçün daha əlverişli şəraitin yaradılması vasitəsidir. A.Tokvil özünün "Amerikada demokratiya" kitabında qarşıya belə bir sual qoyur: hüquqlar ideyasını dərk etməkdə adamlara necə kömək etmək olar? Bu suala cavab olaraq, o, yazır ki, yalnız bir üsul var: hamıya bəzi hüquqlardan istifadə etmək imkanı vermək lazımdır: Amerikada sadə adamlar siyasi hüquqların yüksək anlayışını dərk edirlər, çünki onlara bu hüquqlar verilmişdir. Onlar başqalarının hüquqlarına toxunmurlar, çünki istəmirlər ki, özlərinin hüquqları pozulsun".

Bütövlükdə, tədqiqatlar göstərir ki, insan hüquqlarının formalaşması və inkişafı uzunmüddətli tarixə malik olmaqla, bu və ya digər ölkəyə məxsus olan doktrinalar və ənənələrin mübarizəsi ilə müşayət olunmuşdur. İnsan hüquqları ideyası özü qədim köklərə malik olsa da, yalnız demokratiya, azadlıq, ədalət və formal bərabərlik prinsipləri əsasında əsl məna kəsb etmişdir. Məhz bu əsaslarda vacib əlamətlərindən biri insan hüquqlarının aliliyi olan demokratik-hüquqi dövlətin formalaşması mümkün olmuşdur.

Aparılan təhlillər əsasında müasir dövrdə insan hüquqları və azadlıqları konsepsiyasının əsas ideyaları kimi aşağıdakıları qeyd etmək olar:

- dövlət və şəxsiyyətin qarşılıqlı məsuliyyəti;
- şəxsiyyətin sosial müdafiəsi (sosial-iqtisadi hüquqların təsbit edilməsi və təminatı; əmək, istirahət, mənzil, pensiya təminatı hüquqları və s.);
- hüquq və vəzifələrin vəhdəti;
- insan hüquq və azadlıqlarının bütün növlərinin bir-birini tamamlaması, qarşılıqlı əlaqədə və bərabər dəyərli olması;
- şəxsiyyətin ayrılmaz rifahları və dəyərlərinin, onun hüquq və azadlıqlarının hərtərəfli hüquqi müdafiəsi.

İndiki mərhələdə bütün siyasətin və təcrübənin cəsarətlə insana yönəlməsi ideyası əsas istiqamət kimi çıxış edir. İnsan, onun tələbatları və maraqları, iqtisadiyyatda, sosial-siyasi və mənəvi inkişafda şəxsiyyət başlanğıcının formalaşdırılması həm nəzəriyyədə, həm də təcrübədə fərdi və kollektiv hüquqların izah və təfsir edilməsində aparıcı prinsiplər olmalıdır. Şəxsiyyətin hüquq və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində yeni prinsiplərin təsdiq olunması, sosial-siyasi və hüquqi təsisatların demokratikləşdirilməsi prinsiplərinin dərinləşməsi, cəmiyyətdə özünüidarəetmə və özünütənzimləmənin genişləndiriiməsi, siyasi və hüquqi mədəniyyətin yüksəldilməsi perspektivləri nəzərə alınmaqla inkişaf etdirilməlidir.

> Qeyd etmək lazımdır ki, bu gün insan hüquqları konsepsiyası əvvəllərə nisbətən daha universal əhəmiyyət kəsb edir. Onun rasionallaşdırılmış Qərb mədəniyyəti ilə əlaqəsi tanınsa da, təkcə bu mədəniyyətlə məhdudlaşmır. Demokratiya "qlobal layihə" kimi özünə insan hüquqlarının qeyri-Qərb, o cümlədən, müsəlman və buddist mədəni mühitlərdə formalaşmış anlayışını da daxil edir. Belə ki, Z.Sardar qeyd edir ki, birincisi, insan hüquqlarının buddist və hinduist anlayışları ondan çıxış edir ki, insan hüquqları təkcə fərdin hüquqları demək deyil.

Qeyd etmək lazımdır ki, bu gün insan hüquqları konsepsiyası əvvəllərə nisbətən daha universal əhəmiyyət kəsb edir. Onun rasionallaşdırılmış Qərb mədəniyyəti ilə əlaqəsi tanınsa da, təkcə bu mədəniyyətlə məhdudlaşmır. Demokratiya "qlobal layihə" kimi özünə insan hüquqlarının qeyri-Qərb, o cümlədən, müsəlman və buddist mədəni mühitlərdə formalaşmış anlayışını da daxil edir. Belə ki, Z.Sardar qeyd edir ki, birincisi, insan hüquqlarının buddist və hinduist anlayışları ondan çıxış edir ki, insan hüquqları təkcə fərdin hüquqları demək deyil. İkincisi, bu hüquqlara aid olan münasibətlərə, Allahlar da istisna olmamaqla, universin kosmik obrazına daxil olan bütün canlı və cansız varlıqlar cəlb olunub. Odur ki, insan hüquqlarının onların hamısına aidiyyəti vardır. Üçüncüsü, insan hüquqları təkcə hüquqlar deyil, həm də vəzifələrdir; hüquqlar və azadlıqlar qarşılıqlı asılıdırlar. Bəşəriyyət mövcudluğunu davam etdirmək "hüququna" təkcə ona görə malikdir ki, o, dünyanı qoruyubsaxlamaq borcunu yerinə yetirir. Dördüncüsü, insan hüquqları mütləq deyil, onlara nisbilik xasdır. Onlar özlərinin qarşılıqlı münasibətləri ilə müəyyən olunmuş varlıqlar arasında qarşılıqlı münasibətlərdir.

Bir qrup islamçı alimlər tərəfindən 1981-ci ildə formalaşdırılmış Ümumislam Bəyannaməsi aşağıdakı hüquqları özünə daxil edir: yaşamaq hüququ, azadlıq hüququ, bərabərlik və diskriminasiyanın qadağan edilməsi hüququ, ədalətliliyə, ədalətli məhkəməyə, hakimiyyətin sui-istifadəsindən müdafiəyə, işgəncələrə qarşı müdafiəyə olan hüquqlar.

Göründüyü kimi, insan hüquqları problemi tarixi inkişafın gedişində tədricən ayrı-ayrı ölkələrin daxili siyasi problemin dar çərçivəsindən çıxaraq, özünün beynəlmiləl həllini tapmağa başladı ki, bunun da, ilk üsullarından biri "humanitar müdaxilə" olmuşdur. Ayrı-ayrı ölkələrin daxili işinə humanitar müdaxiləyə xeyli misallar göstərmək olar. Məsələn, 1827-ci ildə yunan əhalisinin hüquqlarını müdafiə etmək məqsədilə Böyük Britaniya, Fransa və Rusiya birlikdə Osmanlı imperiyasına siyasi təzyiq etmişlər ki, bu da Yunanıstanın müstəqilliyi ilə nəticələnmişdir. XIX əsrin sonu-XX əsrin əvvəllərində ABŞ Rusiya imperiyasının hökumətinə yəhudi dağıntıları ilə əlaqədar bir sıra rəsmi təqdimatlar göndərmişdir.

"Humanitar müdaxilə" insan hüquqlarının inkişaf istiqamətlərindən biri kimi, bir tərəfdən, hüquqlar pozulan ölkəni intizama dəvət edən, digər tərəfdən isə, bu ölkənin daxili işinə beynəlxalq birliyin müdaxiləsinin dərəcəsini hərbi qarşıdurmaya çatdırmamaqla mümkün olan çərçivədə məhdudlaşdıran mexanizmin yaradılması zərurətini göstərmişdir. Daha uyğun gələn forma kimi bir, yaxud bir neçə ölkədə əhalinin bu və ya digər hüquqlarının təmin edilməsi probleminə dair beynəlxalq müqavilə forması qəbul olunmuşdur.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Diqqət: Böyrəklər üçün ən ziyanlı 5 QİDA!

Böyrəkləri sağlam saxlamaq üçün aşağıda sadaladığımız qidaların qəbulunu məhdudlaşdırmaq lazımdır.

Bu qidalar arasında:

1. Duzlu qidalalar, şorabalar və s. Duz orqanizmdə suyu saxlayır ki, bu da böyrəklərə olan gərginliyi artırır. Duzlu qidaların tez-tez qəbulu böyrək daşı xəstəliyinin inkişafına təkan verir.

2. Zülallarla zəngin olan qidalar. Zülalların qidalanmamızda olması çox vacibdir. Zülallar orqanizmin əsas "tikinti materialı"dır. Lakin belə qidaların həddindən artıq qəbulu böyrəklər üçün çox ziyanlıdır və böyrək daşı və digər böyrək xəstəliyinin inkişafına səbəb ola bilər.

3. Purin maddələri ilə zəngin qidalar - ət və balıq konservləri, heyvanların içalatı, yağlı bulyonlar və s. Purin maddələrin dağılması nəticəsində çoxlu miqdarda sidik turşusu əmələ gəlir. Sidik turşusunun orqanizmdə artıqlığı podaqra xəstəliyinə, böyrəkərdə və sidik kisəsində daşların əmələ gəlməsinə səbəb olur.

4. İspanaq və turşəng. Az miqdarda qəbul olunduqda bu göyərtilər orqanizm üçün faydalıdır. Lakin bu göyərtilərin çoxlu miqdarda və tez-tez qəbulu böyrəklərdə daşların əmələ gəlməsinə səbəb ola bilər.

5. Çox ədviyyatlı qidalar. Ədviyyatlar çox faydalıdır. Onlar güclü iltihab, mikrob və xərçəngəleyhinə təsirə malikdir. Lakin ədviyyatlardan sui-istifadə etmək olmaz. Qidalanmada ədviyyatların artıqlığı böyrəklərə qıcıqlandırıcı təsir edir və vaxt keçdikcə müxtəlif pozulmalara gətirib çıxarda bilər.

## Evləndikdən sonra niyə artıq çəki alırıq?

Yeni evlənən cütlüklərə uzun müddət "kökəlmisən" sözü deyilir. Evlilikdən sonrakı rahatlıq, stressin yoxluğu, yeni başlayan həyat və sevdiyin insanla olmağın xoşbəxtliyi psixologiyanı rahatladır və heç özün də hiss etmədən davamlı yemək yeyirsən. Evli cütlüklər digər cütlüklərə nisbətdə evdə daha çox vaxt keçirdirlər və daha çox televizor qarşızında otururlar. Nəticədə də televizora baxa-baxa nələrsə yeyirlər. Eyni zamanda da evlilik sonrası edilən balayı da kilonun artmasına gətirib çıxardır.

Evlilikdən sonra həm də həyat yoldaşınla sənin şərəfinə əmi, bibi evində qonaqlıqlar verilir. Qohumların biri gəlir, digəri qonaq çağırır və nəticədə yeyilən dadlı yeməklər kökəlmə ilə nəticələnir. Bəzən isə yeni evli cütlüklərdə qızın yemək bişirə bilməməsi də kilonun artmasına səbəb olur. Belə ki, qayınana evindən kənarda "öz əlim, öz başım" prinsipi ilə yaşayan cütlüklər yemək bişirə bilməyəndə əvəzinə fast food yeyirlər. Bu qidalar isə olduqca kalorili və ziyanlıdırlar.

Bəs bu kökəlmənin qarşısını almaq üçün nələr edilə bilər?

Axşam yeməklərindəki fast food ət və ya balıqla əvəzlənməlidir. Televizora baxarkən yeyilən yeməkləri azaltmalı və ya yağsız, duzsuz 1 stəkan qarğıdalı partladılmışı yeyilə bilər. Ailə, qohum yeməklərindən sonra həyat yoldaşınla 45 dəqiqəlik gəzinti mütləqdir. Bundan əlavə özünə baxmağı və fit görünməyi də unutma. Evlilikdən illər belə keçsə də hər gün həyat yoldaşın sənə yenidən aşiq olmalıdır.

## Ötən il tarixin ikinci ən isti ili olub

NASA alimləri 2017-ci ilin tarixin ikinci ən isti ili olduğunu açıqlayıblar. AZƏRTAC xəbər verir ki, ABŞ-ın Milli Kosmik və Aviasiya İdarəsinin (NASA) elm adamları dünyada istiləşmə prosesinin davam etdiyini və ötən il qlobal ortalama temperaturun 1951-1980-ci illər arasındakı orta hərarətə görə 0,9 dərəcə yüksək olduğunu bildiriblər.

NASA tədqiqatçılarının açıqlamasına əsasən, 1880-ci ildən bəri ən isti il 2016-cı il olub. Ötən il isə ikinci ən isti il kimi tarixə düşüb. Lakin ABŞ-ın Milli Okean və Atmosfer İdarəsi (NOAA) 2017-ci ili tarixin üçüncü ən isti ili hesab edir. Hər iki qurumun fərqli nəticəyə varmasına səbəb onların müxtəlif araşdırma metodlarından istifadə etməsi olub. NASA və NOAA alimləri tarixin ən isti 5 ilinin 2010-cu ildən etibarən qeydə alındığını bildiriblər.

## UEFA prezidenti: Çox varlı klublar ən yaxşı oyunçuları alır



UEFA Prezidenti Aleksandr Çeferin futbolda rəqabət balansının qorunması kursuna sadiq olduğunu bəyan edib. AZƏRTAC xəbər verir ki, o, çox varlı klubların bütün ən yaxşı futbolçuları transfer etdiyini və bunun qarşısının alınmalı olduğunu qeyd edib.

Sloveniyalının sözlərinə görə, UEFA klubların sahibləri ilə Avropa futbolunda agent komissiyalarına və oyunçuların maaşlarına yüksək həddə qadağalar tətbiq edilməsini müzakirə etməyi planlaşdırır. Yeni qaydalara riayət etməyən klublar israfçılıq üçün vergi ödəməli olacaqlar.

## Zinəddin Zidan: "Neymar böyük futbolçudur"



"Real"ın baş məşqçisi Zinəddin Zidan klubun transfer planlarında yer alan PSJ-nin hücumçusu Neymarla bağlı fikirlərini açıqlayıb. SİA-nın məlumatına görə, fransız mütəxəssis braziliyalı futbolçunu bəyənsə də, onun haqda çox danışmaq istəmədiyini bildirib: "Mənə aid olmayan futbolçuları müzakirə etmirəm. Neymar hamının xoşuna gəlir. Çünki böyük futbolçudur. Hamısı bundan ibarətdir". Qeyd edək ki, Neymarın adı bir müddətdir "Real"la birgə hallanır.

## Cüdoçularımız Fransada və Almaniyada keçiriləcək beynəlxalq yarışlarda iştirak edəcəklər



Gələn ay Fransanın paytaxtı Parisdə və Almaniyanın Düsseldorf şəhərində cüdo üzrə "Böyük Dəbilqə" yarışları keçiriləcək. Bu mötəbər turnirlərdə Azərbaycan milli komandası da mübarizə aparacaq. Bu barədə Azərbaycan Cüdo Federasiyasından məlumat verilib. Baş məşqçi Ruslan Maşurenkonun rəhbərliyi ilə cüdoçularımız hazırda Bakı Olimpiya Stadionundakı təlim-məşq bazasında beynəlxalq yarışlara hazırlaşırlar.

Ölkəmizi "Böyük Dəbilqə" turnirində Tərlan Kərimov, İlqar Müşkiyev (hər ikisi 66 kq), Fəqan Quluzadə (81 kq), Rüfət İsmayılov, Əbdülhəq Rəsullu (hər ikisi 90 kq), Zelim Kotsoyev (100 kq), Bazarakça Erdenabat (48 kq), Buyankişiq Purevsuren (52 kq), İçinkorlo Munktsedev (57 kq), İrina Kindzerska (+78 kq) təmsil edəcəklər.

## "Sevilya" "Barselona"nın futbolçusu ilə razılığa gəlib



"Barselona"nın futbolçusu Aleiks Vidal "Sevilya"ya keçə bilər. Qol.az-ın "Mundo Deportivo"ya istinadən yaydığı xəbərə görə, "Sevilya" 28 yaşlı müdafiəçi ilə razılığa gəlib. Ancaq klub Kataloniya təmsilçisi ilə hələ də razılığa nail ola bilməyib. "Sevilya" ispan oyunçunu əvvəlcə icarəyə götürmək, mövsümün sonu isə 8 milyon avro ödəyərək birdəfəlik almaq istəyir. Ancaq "Barsa" Vidalı 12 milyon avrodan aşağı qiymətə satmağı düşünmür. Qeyd edək ki, A.Vidal 2015-ci ildə məhz "Sevilya"dan "Barselona"ya transfer olunub.

### "Mançester Siti" Fernandinyo ilə müqaviləni uzadıb

"Mançester Siti" futbolçusu Fernandinyo ilə müqaviləni uzadıb. Klubun saytında yer alan xəbərə görə, braziliyalı yarımmüdafiəçi 2020-ci ilə qədər "şəhərlilər"də çıxış edəcək. Qeyd edək ki, 32 yaşlı futbolçu 2013-cü ildən İngiltərə klubunda oynayır.

### "Barselona"da daha bir müqavilə

"Barselona"da daha bir yeni müqavilə gerçəkləşib. SİA-nın məlumatına görə, Kataloniya təmsilçisi yarımmüdafiəçi Serji Roberto ilə müqaviləni uzadıb. İspaniya millisinin üzvü ilə 2022-ci ilə kimi saziş bağlanılıb. Onun sərbəst qalma qiyməti isə 500 milyon avro təyin edilib. Qeyd edək ki, 25 yaşlı yarımmüdafiəçi "Barselona"nın yetirməsidir. O, 2010-cu ildən əsas komandada çıxış edir. Xatırladaq ki, "Barselona" Xerard Pike ilə də müqavilə müddətini 2022-ci ilədək uzadıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500